

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN

№ 17 (657) ■ 8 may 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

# Azərbaycanda aviasiya infrastrukturu sürətlə inkişaf edir

***Prezident İlham Əliyev mayın 6-da Heydər Əliyev Beynəlxalq Aeroportunda müasir anqar və aerovağzal komplekslərində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.***



Dövlətimizin başçısına bildirilmişdir ki, Azərbaycanda hava yolları ilə sərnişindaşımanın həyata keçirilməsi üçün ilk aerovağzal binası 1933-cü ildə tikilmişdir. Ölkədə beynəlxalq standartlar səviyyəsində aerovağzal kompleksi isə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş və 1999-cu ildə istismara verilmişdir. Son illər Azərbaycanın mülki aviasiyası intensiv inkişaf mərhələsinə qədəm qoymuş, 2004-cü ildə müasir standartlara cavab verən Naxçıvan Beynəlxalq Aeroportu istifadəyə verilmişdir. Hazırda ölkəmizin hava nəqliyyatındakı bu inkişaf yeni aerovağzal tikintisi zərurətini meydana çıxarmışdır. Qeyd olunmuşdur ki, ümumi sahəsi 65 min kvadratmetr olan yeni kompleksdə 24 lift, 30 eskalator, 37 xüsusi X-Ray aparatı quraşdırılacaqdır. Yeni kompleksdə sərnişinlərin və işçilərin rahatlığını təmin etmək üçün bütün zəruri tədbirlər reallaşdırılacaqdır. Kompleksdə sərnişinlərin qeydiyyatı üçün 41, pasport nəzarəti üçün isə 52 köşk qoyulacaqdır. Bundan əlavə, kompleksdə kafe, restoran və digər xidmət obyektləri fəaliyyət göstərəcəkdir. Layihənin həyata keçirilməsində məqsəd sərnişin və yük daşımalarında xidmətin səviyyəsini daha da yüksəltmək, eləcə də təyyarə uçuşlarının təhlükəsizliyini dünya standartlarına uyğunlaşdırmaqdır. Müasir standartlara cavab verəcək aerovağzal kompleksi ildə üç milyon sərnişinə xidmət göstərmək gücündədir. Üçbucaq formasında inşa ediləcək dördmərtəbəli yeni aerovağzal binası istifadəyə verildikdən sonra buradan beynəlxalq reyslər yerinə yetiriləcəkdir. Mövcud terminal vasitəsilə yerli aviareyslər həyata keçiriləcəkdir. Burada beynəlxalq aviasiyada istifadə olunan ən son elmi-texniki yeniliklər tətbiq ediləcəkdir. Aerovağzal binasının ərazisində eyni vaxtda 13 təyyarəni qəbul edə biləcək teleskopik pilləkən quraşdırılacaqdır.

Prezident İlham Əliyev aeroportda tikilmiş Beynəlxalq Logistika Mərkəzinin açılışında da iştirak etmiş, buradakı şəraitlə tanış olmuşdur. Dövlətimizin başçısına məlumat verilmişdir ki, mərkəzin ümumi sahəsi 12 min 800 kvadratmetrdir. Burada iki qaldırıcı konveyerli transportyor, altı avtomatik qapı, o cümlədən paletləşdirilmiş yüklərin qəbulu və buraxılması üçün konveyerli qapı quraşdırılmışdır. Beynəlxalq Logistika Mərkəzində 30 və 14 tonluq tərəzilər qoyulmuşdur. Burada eyni vaxtda 2200 ton, yaxud 5800 kubmetr paletlərdə yük saxlanıla bilər. Mərkəzin ümumi yük dövriyyə qabiliyyəti gündəlik 1200 ton, yaxud 7000 kubmetr olmaqla illik 430 min ton və ya 2 milyon 500 min kubmetrə bərabərdir. Cənubi Qafqazda yalnız Azərbaycanda olan bu Beynəlxalq Logistika Mərkəzində mənfi 18 dərəcədən müsbət 20 dərəcəyədək bütün növ xüsusi temperatur rejimi tələb edən tez xarab olan yüklər, o cümlədən bitki və heyvan mənşəli yüklər, tibbi preparatlar saxlanıla və emal edilə bilər. Yüklərin qeydiyyatı və izlənməsi üçün xüsusi məlumat sistemi yaradılmışdır. Maksimal yük dövriyyəsi nəzərə alınmaqla hər növbə üzrə burada 44 nəfər çalışacaqdır.

«Silkway Technics» şirkətinin yeni tikilmiş anqar kompleksi ilə tanış olan Prezident İlham Əliyevə məlumat verilmişdir ki, tikintisinə 2011-ci ildə başlanan yeni anqar kompleksində hava gəmilərinə texniki xidmət göstərmək üçün hər cür şərait vardır. Burada quraşdırılan avadanlıq texniki xidməti dünya standartları səviyyəsində həyata keçirməyə imkan verir. Ümumi ərazisi 26 min kvadratmetr olan kompleksin anqar hissəsinin sahəsi 16 min kvadratmetrdir. Eni 160, hündürlüyü 23, dərinliyi 95 metr olan anqarda eyni vaxtda ən böyük hava gəmisi olan iki «Boinq-747» təyyarəsinə, həmçinin dargövdəli 8-10 təyyarəyə texniki xidmət göstərmək üçün bütün zəruri şərait vardır.

Prezident İlham Əliyev yeni alınmış iki AİRBUS A340-500 sərnişin təyyarələrinə də baxmışdır. Bildirilmişdir ki, maksimal sürəti saatda 890 kilometr olan bu hava gəmiləri birbaşa 15 min 742 kilometr məsafə qət edə bilir. Bu da öz növbəsində uzaqməsafəli uçuşları daha səmərəli həyata keçirməyə imkan yaradır. AİRBUS A340-500 təyyarələri bu gün dünyanın ən nüfuzlu aviaşirkətləri tərəfindən istifadə edilir. 237 yerlik avialayner sərnişinlərin rahatlığını təmin və uçuşların maraqlı təşkil etmək üçün bütün zəruri avadanlıqla təchiz olunmuşdur. Qeyd olunmuşdur ki, «Azərbaycan Hava Yolları» aviaparkın daha da müasirləşdirilməsi istiqamətində gələcəkdə də fəaliyyəti davam etdirəcəkdir.

## rəsmi xronika

### Birinci Cənubi Qafqaz Forumu işə başlamışdır

Mayın 7-də Bakıda Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Madrid Klubunun və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin birgə təşkilatçılığı ilə Birinci Cənubi Qafqaz Forumu işə başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak etmişlər.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi idarə heyətinin həmsədri, Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldin Forumu açaraq tədbirin əhəmiyyəti haqqında danışmışdır. O, Forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycan Hökumətinə təşəkkürünü bildirmişdir.

Dövlətimizin başçısı Forumun açılışında nitq söyləmişdir.

Sonra İordaniya Kraliçası Ülyahəzrət Nur, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi idarə heyətinin həmsədri, Latviyanın sabiq Prezidenti xanım Vayra Vike-Freyberqa, Madrid Klubunun prezidenti, Niderlandın keçmiş Baş naziri Vim Kok çıxış etmişlər.

Forumda Madrid Klubunun, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri, dünyanın müxtəlif ölkələrindən gəlmiş 300-dən çox ekspert, yüksək səviyyəli rəsmilər, sabiq dövlət və hökumət başçıları, alimlər iştirak edirlər.

### İkitərəfli əlaqələr müzakirə olunmuşdur

Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstan Prezidenti Mixeil Saakaşvili ilə görüşmüşdür.

Görüşdə Bakıda keçirilən Birinci Cənubi Qafqaz Forumunun beynəlxalq əməkdaşlığın möhkəmlənməsi baxımından əhəmiyyəti qeyd olunmuşdur.

Söhbət zamanı Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq bildirilmişdir.

Həmin gün Prezident İlham Əliyev Serbiyanın sabiq Prezidenti Boris Tadiç ilə görüşmüşdür. Görüşdə Bakıda keçirilən Birinci Cənubi Qafqaz Forumunun önəmi qeyd edilmiş, Azərbaycan ilə Serbiya arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanmışdır.

# Mobil hökumətə doğru uğurlu addım

*May ayının 2-də «JW Marriott Absheron Baku» otelində Vergilər Nazirliyinin Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət üzrə Dövlət Agentliyi (ASAN xidmət) ilə birgə təşkil etdiyi «ASAN imza - mobil hökumətin açarıdır» mövzusunda konfrans keçirilmişdir. Konfrans Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzinin təqdimatına həsr olunmuşdur.*




Tədbiri giriş sözü ilə açan vergilər naziri Fazil Məmmədov son illər ardıcıl və sistemli şəkildə həyata keçirilən çoxşaxəli islahatların bütün strateji əhəmiyyətli sahələrdə əsaslı dəyişikliklərə səbəb olmaqla hər bir ölkə vətəndaşının taleyində mühüm rol oynadığını, sosial-iqtisadi sahədə yüksək nəticələrin əldə olunduğunu bildirmişdir: «Məlum olduğu kimi, informasiya-kommunikasiya texnologiyaları modern və çevik idarəetmənin həyata keçirilməsində, dövlət qurumlarının fəaliyyətində şəffaflığın təmin olunmasında, vətəndaşların keyfiyyətli xidmətlər əldə etməsində mühüm rol oynayır. Elektron xidmətlər dövlət orqanı ilə vətəndaş arasında qarşılıqlı münasibətlərin səmərəliliyinin artırılmasına, eləcə də korrupsiya və süründürməçiliyin qarşısının alınmasına şərait yaradır».

F.Məmmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş «Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli fəaliyyət planı»na uyğun olaraq dövlət orqanlarının üzərinə mühüm vəzifələr düşdüyünü vurğulamışdır: «Son illər idarəetmənin bütün sahələrində müasir texnologiyaların nailiyyətlərindən istifadə olunması və mütərəqqi beynəlxalq təcrübənin tətbiqi ilə bağlı xeyli iş görülmüşdür. Bir sıra dövlət qurumları, o cümlədən Vergilər Nazirliyi vətəndaşlara göstərilən xidmətləri elektron vasitələrdən geniş istifadə etməklə həyata keçirməyə başlamış, elektron məlumat bazaları yaradılmışdır. Ölkə Prezidentinin fərmanı ilə «ASAN xidmət» mərkəzlərinin yaradılması ilə dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsinə, korrupsiya hallarının azalmasına, vətəndaşların vaxt itkisinin qarşısının alınmasına nail olunmuşdur».

Ölkədə «Elektron hökumət» quruculuğu istiqamətində görülən genişmiqyaslı işlərdən danışan nazir vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin spektrinin genişləndirilməsi, vergi ödəyiciləri ilə canlı əlaqə formalarının məhdudlaşdırılması və bu sahədə müasir informasiya texnologiyalarından istifadə edilməsinin Vergilər Nazirliyinin prioritet vəzifələrindən olduğunu və bu sahədə daim yeni layihələr həyata keçirildiyini bildirmişdir: «Bununla əlaqədar, Vergilər Nazirliyində Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS), «Elektron bəyannamə», «İnternet Vergi İdarəsi» e-dövlət portalı, «bir pəncərə» prinsipi üzrə sahibkarlıq subyektlərinin fəaliyyətinin təşkili, «ƏDV-nin depozit hesabı», «Elektron vergi hesab-fakturası», «Dövlət qurumları və banklarla inteqrasiya» məlumat mübadiləsi sistemi kimi iri dövlət əhəmiyyətli layihələr tətbiq edilir ki, bunun nəticəsində vergi ödəyiciləri ilə vergi orqanları arasında münasibətlərin daha da sadələşdirilməsi və şəffaflığın artırılması təmin edilmiş, digər dövlət qurumları ilə inteqrasiyaya, vergi ödəyicilərinə müxtəlif növ elektron xidmətlərin göstərilməsinə nail olunmuşdur.

**Davamı 2-ci səhifədə**

# Azərbaycanda velosiped bayramı

### *«7-dən 77-yə»*

Aprelin 30-da Bakıda Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən Yeni bulvar ərazisində velosiped həvəskarları üçün «7-dən 77-yə» adlı yarış təşkil edilmişdir. Tədbirə yüzlərlə velosiped həvəskarı qatılmışdır. Müxtəlif yaş kateqoriyalarında 4 km yaxın məsafədə yarışan velosiped həvəskarları arasında keçirilən yarışın sonunda hər yaş kateqoriyası üzrə qaliblərə BMW markalı velosipedlər hədiyyə edilmişdir.

### *«Tour d'Azerbaidjan 2013» beynəlxalq velosiped turunun açılış mərasimi*

Aprelin 30-da ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş «Tour d'Azerbaidjan 2013» beynəlxalq velosiped turunun açılış mərasimi və komandaların təqdimatı keçirilmişdir. Mərasimdə Gənclər və İdman Nazirliyinin, Milli Olimpiya Komitəsinin, Beynəlxalq Velosipedçilər İttifaqının, ölkəmizin müxtəlif idman federasiyalarının nümayəndələri, velosiped idmanı həvəskarları iştirak etmişlər.

Dənizkənarı Milli Parkda təşkil edilmiş mərasimdə çıxış edən Azərbaycan Velosiped İdmanı Federasiyasının prezidenti Fazil Məmmədov Azərbaycan paytaxtının mühüm idman mərkəzinə çevrildiyini, burada hər il çoxlu sayda müxtəlif beynəlxalq yarışların keçirildiyini bildirmişdir.

**Davamı 8-ci səhifədə**

3 Vergilər Nazirliyində geniş kollegiya iclası keçirilmişdir

3 Təlim və tədris prosesi təkmilləşdirilir

4 Elektron təhlükələrə qarşı etibarlı müdafiə sistemi...

5 Nağdsız ödənişlərin inkişafına xidmət edən yeni layihə

# Mobil hökumətə doğru uğurlu addım



Əvvəli 1-ci səhifədə

Bu sistemlər vasitəsilə vergi ödəyicilərinə və vətəndaşlara təqdim olunan çoxsaylı elektron xidmətlər istismara verilərkən respublikamızda hələ e-imza sertifikat mərkəzi istifadəyə verilmədiyindən Nazirlər Kabinetinin 2007-ci il 27 iyul tarixli qərarı ilə «Vergi hesabatının elektron sənəd formasında göndərilməsi Qaydası» təsdiq edilmiş və həmin qərar əsasında istifadəçi kodu və paroldan istifadəyə başlanmışdır.

Respublikamızda informasiya texnologiyalarının və mobil xidmətlərin davamlı inkişaf etməsi əhali tərəfindən elektron xidmətlərdən istifadə tələbatını artırır və elektron imzaya ehtiyacı ön plana çəkir. Vergilər Nazirliyi tərəfindən digər elektron xidmətlərin elektron imzadan istifadə etməklə həyata keçirilməsi və həmçinin mobil qurğular vasitəsilə təqdim olunması da nəzərdə tutulur. «ƏDV-nin depozit hesabı», «Elektron vergi hesab-fakturası» kimi bəzi xidmətlərdən istifadə isə yalnız elektron formada mümkündür.

Göstərilən xidmətlərin icra prosesində göndərilən və qəbul edilən sənədlərin onlayn rejimdə məhdud zaman ərzində elektron imzalanması tələb olunur.

Bu sahədə mövcud və gələcəkdə yarana biləcək problemlərin qarşısının alınması məqsədilə Vergilər Nazirliyinin nəzdində Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin platforması ilə sıx inteqrasiya olunmaqla bütün mövcud kompüter əməliyyat sistemlərini və mobil qurğuları dəstəkləyən Elektron İmza Sertifikat Xidmətləri Mərkəzi yaradılmışdır. Mərkəz Avropa standartlarının tələblərinə uyğun hazırlandığından elektron imzaların Avropa ölkələri ilə qarşılıqlı tanınması mümkün olacaqdır ki, bu da Azərbaycan vətəndaşlarına digər ölkə vətəndaşları ilə birgə şirkətlər yarada bilmək və şirkətlərarası müqavilələri elektron formada internet üzərindən imzalamaq imkanı verəcək. Mobil İmza Mərkəzi ilə inteqrasiya olunduğundan, yeni sistem bütün növ qurğularda autentifikasiya imkanı verəcəkdir. Bu isə ölkəmizdə internet/mobil bankçılığının inkişafına böyük təkan verməklə nağdsız hesablaşmaların genişlənməsinə səbəb olacaqdır.

Məhz buna görə də «ASAN», fəaliyyət istiqamətlərinə uyğun olaraq, mobil hökumət layihəsi çərçivəsində yeni nəsil elektron xidmətlərin tətbiqi yeni inkişaf mərhələsinin başlanğıcı deməkdir. Azərbaycan Respublikasının Vergilər Nazirliyinin elektron imza üzrə Sertifikat Xidmətləri Mərkəzinin istismara verilməsini və mobil imza («ASAN imza») layihəsini elektron hökumətdən (e-Government) mobil hökumətə (m-Government) keçidin əsası kimi qiymətləndirmək olar».

Tədbirdə Estoniya Respublikasının ölkəmizdəki səfiri Miko Halyas və Avropa Şurası Parlamentinin üzvü Kristina Oyuland çıxış edərək layihənin əhəmiyyətini vurğulamış, belə uğurlu addımların Azərbaycanla Avropa Birliyi ölkələri arasında əlaqələrin daha da dərinləşməsinə xidmət etdiyini bildirmişlər. Konfransda xarici şirkətlərin nümayəndələri təqdimatlarla çıxış etmişlər.

Tədbirdə çıxış edən Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında İKT-nin ölkənin əsas inkişaf istiqamətlərindən biri kimi müəyyənləşdirildiyini və hazırda Azərbaycanda informasiya və kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyini vurğulamışdır: «Cari ilin aprel ayının əvvəlində Dünya İqtisadi Forumunun «İnformasiya texnologiyalarının İnkişafı 2013» adlı hesabatında Respublikamız şəbəkə hazırlığı indeksi üzrə ötən ilə nisbətən 5 pillə irəliləyərək 56-cı yerdə qərarlaşmışdır. Beləliklə, Azərbaycan internet istifadəçilərinin sayına görə regionda lider ölkələrdən birinə çevrilmişdir. Azərbaycanda elektron imza sistemi 2011-ci ildən istifadəyə verilmişdir və hazırda verilən elektron imzaların ümumi sayı 12 mindir. Ölkə əhalisinin 9 milyon olduğunu, fiziki və hüquqi şəxslərin durmadan artdığını nəzərə alsaq, elektron imzanın sayının artacağı gözlənilir. Elektron imza yalnız insanlara deyil, maşınlara, hətta cihazlara da aid edilməlidir. Yeni sistem yüksək səviyyədə qorunan mobil qurğularla vətəndaşlara çatdırılan mobil sertifikasiya sistemidir. Bu sistemin sonrakı istismarı elektron imzadan istifadənin kütləviliyini artıracaq, onun etibarlılığını təmin edəcək və yeni xidmətlərin yaradılması üçün geniş imkanlar açacaq».

*«Vergilər Nazirliyinin Sertifikat Xidmətləri Mərkəzi - yeni mobil xidmət imkanları» mövzusunda təqdimatla çıxış edən* ***Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi Samirə Musayeva*** ASAN Sertifikat Xidmətləri Mərkəzinin elektron imza sertifikatının verilməsi ilə bağlı həm hakimiyyət orqanlarına, həm də bütün fiziki və hüquqi şəxslərə xidmətlər göstərdiyini bildirmişdir: «ASXM Mobil İD Mərkəzi və onun vasitəsilə Azercell, Bakcell, Nar kimi mobil operatorlar, o cümlədən Vergilər, Daxili İşlər, Ədliyyə nazirlikləri, banklar və digər təşkilatlarla əlaqəli şəkildə fəaliyyət göstərir. Mobil rəqəmsal imzanın aktivləşdirilməsi Asan Sertifikat Xidmətləri Mərkəzində və «ASAN xidmət» mərkəzlərində həyata keçiriləcək. ASXM Vergilər Nazirliyinin sahibkarlıq subyektlərinin dövlət reyestri, Vergi ödəyicilərinin uçot-məlumat bazası və Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) ilə inteqrasiya olunub. Artıq ASXM-ə müraciət edən sahibkarlıq subyektinin elektron imza sertifikatını əldə etməsi üçün vergi ödəyicisi və ya hüquqi şəxs olması barədə hər hansı sənəd təqdim etməsinə zərurət yaranmayacaq. Bütün məlumatlar Mərkəz tərəfindən onlayn şəkildə əldə olunacaq. Bu da, təbii ki, sahibkarların vaxt və maddi vəsait resurslarına qənaət etmələrinə imkan verəcək. Hər bir şəxs ASAN imza yüklənmiş sim kartı əldə etməklə bütün qurğularda mobil telefonlar, smartfonlar, planşetlər, stolüstü və portativ kompüterlər vasitəsilə istənilən e-xidmətdən tam təhlükəsiz şəraitdə istifadə edə biləcək. ASAN imza e-xidmətlərdən istifadə çoxsaylı kod/parolun istifadə zərurətini aradan qaldıracaq. Yeni sistemdə vətəndaş bütün qurumların e-xidmətlərindən istifadə edə biləcək. Mobil imzanın tətbiqi ilə hüquqi şəxsin geniş onlayn qeydiyyatı prosesi 30 dəqiqədən 1 dəqiqəyədək, sürətli qeydiyyatı isə 30 saniyəyədək azalacaq. Yeni sistemin Avropa direktivlərinə uyğunluğu gələcəkdə Avropa Birliyi ölkələri ilə Azərbaycan arasında elektron imzaların qarşılıqlı tanınmasına imkan verəcək.




*«Elektron xidmətlərin inkişafında ASAN imzanın rolu» mövzusunda çıxış edən* ***Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov*** «ASAN xidmət» mərkəzinin yaradılmasında əsas məqsədin dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılması, münasibətlərin keyfiyyətcə yeni müstəviyə keçidinin təmin edilməsi olduğunu bildirmişdir. «ASAN xidmət» mərkəzinin fəaliyyətinin əsas məqsədlərini vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azaldılması, şəfaflığın artırılması və korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsii təşkil edir: «ASAN xidmət» vahid məkandan dövlət xidmətlərinin göstərilməsi üzrə mexanizmin Azərbaycan modelidir. Mərkəzdə hazırda 9 dövlət orqanı tərəfindən 25 xidmət göstərilir. Cari ilin aprel ayında daxil olmuş müraciətlərin aylıq həcmi 27417, göstərilmiş xidmətlərin sayı isə 22814 olmuşdur. Yaxın zamanlarda Bakı şəhərinin Xətai, Yasamal rayonlarında, o cümlədən Gəncə şəhərində yeni Xidmət mərkəzlərinin açılışı nəzərdə tutulur. «ASAN xidmət», yerləşmə məkanından asılı olmayaraq, bütün vətəndaşlar üçün əlçatan olmalıdır. Bunun üçün çox yaxın zamanlarda Mərkəz tərəfindən xüsusi avtobuslar vasitəsilə vətəndaşlara səyyar xidmətlərin göstərilməsinə başlanacaq».

***Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamentinin direktoru Kəmalə Qurbanova*** «Elektron bankçılıq: mövcud vəziyyət və inkişaf perspektivləri» mövzusunda təqdimatla çıxış etmişdir. O, elektron ödəniş infrastrukturunun formalaşdırılması istiqamətində aparılan tədbirlərin şərti olaraq 3 strateji dövrə bölündüyünü qeyd etmişdir: «İlk mərhələ elektron bankçılığın əsaslarının yaradılması ilə səciyyələnir. Belə ki, Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən 2001-ci ildə iri və təcili ödənişlər üzrə Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi, 2002-ci ildə isə xırda və daim təkrarlanan ödənişlərin elektron daşıyıcılarla həyata keçirilməsinə imkan verən Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sisteminin istifadəyə verilməsi ilə respublikada banklararası hesablaşmalar tam şəkildə elektronlaşdırılmışdır. Növbəti mərhələdə kütləvi xidmət müəssisələrinin elektron ödəniş infrastrukturuna inteqrasiyasının təmin edilməsi üçün Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sistemi yaradılmışdır. Sonuncu mərhələ isə vergi, rüsum, cərimə, icarə haqqı və digər büdcə ödənişlərinin müasir ödəniş üsulları ilə toplanması məqsədilə Hökumət Ödəniş Portalının yaradılması və aidiyyəti dövlət orqanlarının inteqrasiya olunması prosesi ilə xarakterizə edilir. Bu dövrdə Maliyyə, Vergilər, Daxili İşlər nazirlikləri ilə yanaşı, DSMF və BDYPİ kimi dövlət orqanları yaradılmış infrastruktura inteqrasiya olunmuşdur. Hal-hazırda bütün ölkə ərazisində bu təşkilatlar üzrə büdcə ödənişləri istənilən bank, poçt şöbələrində, eyni zamanda, internet üzərindən ödəniş kartları vasitəsilə qəbul olunur.

Müasir cəmiyyət daha çevik, təhlükəsiz, az resurs tələb edən bank xidmətlərinə istənilən zaman istənilən məkandan çıxış tələb edir. Bu gün elektron bankçılıq dinamik inkişaf edən seqmentdir və bu templə yaxın gələcəkdə klassik bankçılığı əvəz edəcəkdir.

Qısa vaxt ərzində yüksək nəticələr əldə etmək üçün banklar elektron ödəniş xidmətlərinə, nağdsız ödənişlərin inkişafına təşviq edilməlidir. Bu məqsədlə Mərkəzi Bank tərəfindən «Nağdsız ödənişlər üzrə lider bank» və «Elektron bankçılıq xidmətlərində lider bank» nominasiyaları elan edilmişdir. Tədbir çərçivəsində cari ildə nağdsız ödənişlərin inkişafı sahəsində fərqlənmiş bankların mükafatlandırılması planlaşdırılır. Vergilər Nazirliyi tərəfindən də daha müasir texniki imkanlara malik sertifikasiya mərkəzinin yaradılması, digər sahələrdə olduğu kimi, bank-müştəri münasibətlərinin elektronlaşdırılmasında da öz müsbət rolunu oynayacaqdır».

*«ASAN imza Azərbaycan sahibkarlarına nə vəd edir» mövzusunda çıxış edən* ***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev*** bidirmişdir ki, müasir dövrdə respublikamızda informasiya texnologiyalarının və mobil xidmətlərin davamlı inkişaf etməsi əhalinin elektron xidmətlərə tələbatını artırmış və bu səbəbdən, elektron imzaya böyük ehtiyac yaranmışdır: «Sahibkarların elektron ticarət sahəsində geniş imkanlar əldə etməsi baxımından, ASAN imza texnologiyasının tətbiqi olduqca mühüm əhəmiyyət kəsb edir. Vergilər Nazirliyinin təqdim etdiyi elektron xidmətlərdən istifadə zamanı imzalanacaq sənədlərin insan müdaxiləsi olmadan proqram vasitəsilə həyata keçirilməsi onu göstərir ki, ASAN imza praktikası təkcə elektron ticarət sahəsində deyil, ümumiyyətlə, ölkəmizdə sahibkarlığın sürətli inkişafı baxımından önəmli əhəmiyyətə malikdir. Belə ki, ASAN imza elektron ticarət ilə yanaşı, sənədlərin elektron dövriyyəsinin inkişafına güclü təkan verəcəkdir. ASAN imza açıq açar prinsipinə əsaslanan kriptoqrafik texnologiyanın tətbiqinə əsaslanır və bu məqsədlə müxtəlif xüsusi tətbiqi proqramların yaradılmasını nəzərdə tutur. Bu proqramlar istənilən elektron vasitə və sadəcə, «ASAN imza pin kodu» ilə banklarda ödənişlərin rahat həyata keçirilməsi, dövlət elektron resurslarına çıxış üçün sənədlərin imzalanması məqsədilə nəzərdə tutulur. Bu baxımdan, qeyd olunan texnologiya Azərbaycan sahibkarlarına bank əməliyyatlarını həyata keçirərkən vacib sənədləri, məxfi məlumatları lazımi instansiyalara elektron ötürücülərlə göndərərkən vaxt itkisini minimum səviyyəyə endirməyə, ən əsası isə bu əməliyyatları informasiya təhlükəsizliyi nöqteyi-nəzərindən, maksimum təhlükəsiz şəkildə həyata keçirməyə imkan verəcəkdir. Mobil imza sayəsində sahibkarlar və işəgötürənlər vergi bəyannamələrini, hesabatları və digər sənədləri Vergilər Nazirliyinə asanlıqla, vaxt itirmədən təqdim edə biləcəkdir. Eyni zamanda, sahibkarlar gələcəkdə yarana biləcək əmək mübahisələri və ya hər hansı məhkəmə çəkişmələri zamanı sənədləri hüquq-mühafizə orqanlarına, məhkəmə instansiyalarına rəqəmsal imza ilə təsdiq edərək, operativ şəkildə təqdim etməyə nail olacaqlar.

Qeyd etmək lazımdır ki, Vergilər Nazirliyi müasir və mütərəqqi texnologiyaların Azərbaycana gətirilməsi və vergi xidmətində tətbiq olunması sahəsində böyük nailiyyətlər əldə etmişdir. Bu gün əminliklə demək olar ki, Vergilər Nazirliyi dövlət başçısının tapşırıqlarından irəli gələn müddəaların icrası ilə bağlı ardıcıl tədbirlər görür, vergi sisteminin təkmilləşdirilməsi, yeni texnologiyaların tətbiqi yolu ilə göstərilən vergi xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində çox mühüm işlər həyata keçirir».

*«ASAN imzanın Azərbaycanda elektron hökumətin inkişafında rolu» mövzusunda çıxış edən* ***Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz*** ölkədə elektron hökumət quruculuğu istiqamətində bir sıra addımların atılmasından, elektron hökumət portalının, e-imza infrastrukturunun yaradılmasından, bu sahədə normativ-hüquqi aktların qəbul edilməsindən danışmışdır.

**Arzu İBRAHİMOVA**

# Operativ vergi nəzarəti

2013-cü ilin aprel ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 4386 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmişdir. 2226 vergi ödəyicisi tərəfindən nağd hesablaşmaların aparılması qaydalarının pozulduğu, 439 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz olaraq alınıb-satıldığı və ya dəyişdirildiyi, 222 vergi ödəyicisinin vergi orqanlarında uçota durmadan fəaliyyət göstərdiyi, 716 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edimişdir.

Operativ nəzarət tədbirləri zamanı 400 vergi ödəyicisi tərəfindən 525 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlanılmadan işə cəlb edildiyi, 133 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 125 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış 5286 ədəd mal olduğu aşkarlanmışdır.

Bütün faktlarla bağlı qanunamüvafiq tədbirlər görülmüşdür.

# Ulu öndərin 90 illik yubileyi qeyd edilmişdir

**May ayının 5-də Bakı Şəhər Vergilər Departamentinin (BŞVD) Bəyannamələr idarəsində ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.**

Tədbiri giriş sözü ilə açan vergilər nazirinin müşaviri Ələkbər Məmmədov Azərbaycan Respublikasının sosial-iqtisadi və siyasi sahədə qazandığı uğurların ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirmişdir: «Ulu öndərin gərgin əməyi və uzaqgörən siyasəti nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxladı, xalqımız vətəndaş müharibəsi təhlükəsindən və qardaş qırğınından xilas oldu. Ölkədə getdikcə gərginləşən siyasi, iqtisadi böhranların qarşısı alındı, böyük quruculuq işlərinə başlanıldı və Azərbaycanın dövlətçilik tarixinin yeni mərhələsinin əsası qoyuldu».

Həmin dövrdə irimiqyaslı islahatlara yönələn iqtisadi siyasətin ayrılmaz tərkib hissəsi olan vergi siyasətində də köklü dəyişikliklərin aparıldığı, vergi sisteminin müasir standartlar əsasında formalaşdırıldığı qeyd edilmişdir: «Azərbaycanın vergi sisteminin dünya standartlarına uyğunlaşdırılması istiqamətində görülən işləri şərti olaraq iki mərhələyə bölmək olar: 1993-1999-cu illər və 1999-2003-cü illər. Birinci mərhələdə yürüdülən iqtisadi siyasətin əsas məqsədi ölkənin iqtisadi xaosdan çıxarılmasına, makroiqtisadi sabitliyin möhkəmləndirilməsinə, əlverişli investisiya mühitinin yaradılmasına, milli istehsalın artırılmasına nail olmaq idi. İslahatların 1999-cu ildən başlanan ikinci mərhələsində bütün diqqət mükəmməl vergi qanunvericiliyinin yaradılmasına, inzibati idarəetmənin yaxşılaşdırılmasına və vergilərin dövlət büdcəsinə tam səfərbər olunmasına yönəldildi. Hazırda ulu öndərin layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin vergi xidmətinin təkmilləşdirilməsi, modernləşdirilməsi və müasir dünya standartlarına tam uyğunlaşdırılması prosesi gedir».

BŞVD-nin Vergi ödəyicilərinə xidmət idarəsinin əməkdaşı Nigar Məmmədova ulu öndərin ölkədə yürütdüyü gənclər siyasətindən, gənclərə olan dövlət qayğısından danışmışdır.

BŞVD-nin Hüquq idarəsinin rəisi Sərxan Məmmədov diqqəti ulu öndər Heydər Əliyev tərəfindən aparılan sərt və çevik pul-kredit, büdcə, vergi, gömrük siyasətinə yönəldərək bu addımlar nəticəsində ölkədə makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin olunduğunu bildirmişdir.

# Vergilər Nazirliyində geniş kollegiya iclası keçirilmişdir

*Vergilər Nazirliyində 2012-ci ilin və 2013-cü ilin birinci rübü üzrə fəaliyyətin yekunları, həmçinin ölkə Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin I rübünün sosial-iqtisadi inkişafının yekunları ilə bağlı toplantısında dövlət başçısı tərəfindən verilmiş tapşırıqların icrasına həsr edilmiş geniş kollegiya iclası keçirilmişdir.*

İclasda çıxış edən kollegiyanın sədri, vergilər naziri, 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov ötən dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkənin iqtisadi inkişafında yeni nailiyyətlər əldə edildiyini, ölkəmizdə dünya miqyaslı qlobal layihələrin həyata keçirilməsinə başlandığını bildirmiş, ötən dövrdə tarixdə ilk dəfə olaraq Azərbaycanın BMT Təhlükəsizlik Şurasına sədrlik etməsi, «Avrovision» müsabiqəsinin keçirilməsi, «İnformasiya-kommunikasiya texnologiyaları ili» çərçivəsində «Azərspace» ilk telekommunikasiya peykinin orbitə buraxılması, birinci Avropa Olimpiya Oyunlarının Bakıda təşkili barədə qərarın qəbul olunması, Dünya İqtisadi Forumuna («Davos Forumu») ev sahibliyi etməsi ilə müşayiət olunduğunu söyləmişdir.

Vergilər naziri ölkə rəhbərliyinin həyata keçirdiyi iqtisadi diversifikasiya siyasətinin və makroiqtisadi göstəricilərin artımının uğurla davam etdiyinibildirmişdir. Qeyd edilmişdir ki, aparılan uzaqgörən və uğurlu sosial-iqtisadi siyasət vergi orqanları qarşısında duran vəzifələrin də öhdəsindən gəlməyə imkan vermiş, Azərbaycan iqtisadiyyatında baş verən dinamik inkişaf ötən dövrdə vergi sistemində mütərəqqi islahatların aparılmasına və çevik vergi siyasətinin həyata keçirilməsinə zəmin yaratmışdır.

Kollegiyanın sədri Nazirlər Kabinetinin 2013-cü ilin I rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafı, vergitutma bazasının genişləndirilməsi, nağdsız ödənişlərin tətbiqinin və elektron xidmətlərdən istifadə imkanlarının artırılması, vətəndaş müraciətlərinə baxılmasının vacibliyi və s. məsələlərlə bağlı konkret göstərişlər verdiyini bildirmişdir. Qeyd edilmişdir ki, Vergilər Nazirliyi və digər qurumlar tərəfindən yığılan vəsaitlərin cari büdcə xərclərinin bağlanması üçün kifayət etməsi üçün büdcə gəlirlərinin artırılmasının vacibliyi ölkə başçısı tərəfindən vergi orqanlarının qarşısında mühüm vəzifə kimi qoyulmuşdur. Vergilər naziri ötən dövrdə vergi orqanlarının əsas fəaliyyətinin məhz bu tapşırığın icrası istiqamətində qurulduğunu, son iki ildə qeyri-neft sektoru üzrə vergi daxilolmalarının 39,5 faiz və ya 931,1 milyon manat artdığını qeyd etmişdir.

Sonra vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov 2012-ci il və 2013-cü ilin birinci rübü üzrə fəaliyyətin yekunları ilə bağlı hesabat məruzəsi ilə çıxış etmişdir. Qeyd edilmişdir ki, 2012-ci ildə büdcəyə 6 milyard 25 milyon 504,6 min manat, cari ilin I rübündə isə 1 milyard 523 milyon 423,3 min manat həcmində vəsait daxil olmuşdur. 2013-cü ilin I rübündə daxil olmuş vəsait ötən ilin müvafiq dövrü ilə müqayisədə 133,0 milyon manat və ya 9,6 faiz çoxdur. Bildirilmişdir ki, cari ilin I rübündə qeyri-neft-qaz sektoru üzrə proqnoz tapşırıqları 102,5 faiz icra edilərək, 839,2 milyon manat vəsait dövlət büdcəsinə səfərbər edilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,0 faiz (47,5 milyon manat) artıqdır.

Vergilər nazirinin müavini vergitutma bazasının genişləndirilməsi istiqamətində görülən işlər, vergi nəzarətinin səmərəliliyinin yüksəldilməsi, vergi hüquqpozmalarına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, vergi inzibatçılığında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üzrə görülmüş işlərlə bağlı geniş məlumat vermişdir.

Daha sonra vergilər nazirinin müşaviri, vergi xidməti müşaviri Ələkbər Məmmədov Vergilər Nazirliyi sistemində tədris və təlimin vəziyyəti, problemlər və perspektivlər haqqında ətraflı çıxış etmişdir.

Kollegiya iclasının yekununda çıxış edən vergilər naziri Fazil Məmmədov əldə edilən nailiyyətlərlə yanaşı, vergi orqanları qarşısında hələ bir çox mühüm işlərin olduğunu, xüsusilə 2013-cü il və növbəti illərin dövlət büdcəsi üzrə proqnozların icrası baxımından «Vergi Məcəlləsinə dəyişikliklərin edilməsi barədə qanunun tətbiqi barədə» fərmanla Vergilər Nazirliyinə verilmiş tapşırıqların mühüm əhəmiyyət kəsb etdiyini söyləmişdir. Qeyd edilmişdir ki, ölkə Prezidentinin müvafiq fərmanında nəzərdə tutulmuş tapşırıqların icrası məqsədilə artıq bir sıra işlər görülmüş, o cümlədən nağdsız əməliyyatların stimullaşdırılması və nağd əməliyyatların məhdudlaşdırılması ilə bağlı təkliflər paketi hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.

Vergilər naziri vergi sisteminin inkişafı üzrə yaxın və orta perspektiv müddətlərdə inkişaf planlarına toxunaraq bildirmişdir ki, «Azərbaycan - 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası vergi orqanlarının da qarşısında ciddi vəzifələr müəyyən etmişdir. Bununla əlaqədar olaraq, nazirliyin 2013-2020-ci illər üçün təsdiq edilmiş Strateji Plan çərçivəsində 22 istiqamət üzrə tədbirlər həyata keçiriləcəkdir.

Fazil Məmmədov bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrini əsas tutaraq vergi orqanları cari ildə də ölkənin dinamik inkişafını təmin edən addımları davam etdirəcək, vergi xidmətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində bütün səylərini səfərbər edəcəklər.

Sonda vergilər naziri qarşıda duran məsələlərin icrası ilə bağlı müvüfiq strukturlara konkret göstərişlər vermişdir.

# Təlim və tədris prosesi təkmilləşdirilir



***Əməkdaşların peşə hazırlığının təkmilləşdirilməsi, yeni təlim metodlarına əsaslanan vergi təhsilinin təşkili Vergilər Nazirliyinin qarşıya qoyduğu prioritet vəzifələrdəndir. Bu sahədə aparılan işlərlə daha ətraflı tanışlıq üçün suallarımızı Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi Ceyhun Yusifov cavablandırır.***

***- Ceyhun müəllim, vergilər nazirinin əmri ilə yaradılmış Tədris-metodiki Şuranın təlim və tədris prosesində funksiyalarının əsas istiqamətləri nədən ibarət olacaq?***

- Bildiyiniz kimi, Vergilər Nazirliyinin tədris konsepsiyasına əsasən, vergi orqanının rəhbərliyi tərəfindən hər bir əməkdaşın tədris tələbatları müəyyən edilir və əldə olunan məlumatlar tədrisi təşkil edən İnsan resursları idarəsinə və Tədris Mərkəzinə təqdim olunur. Tədris tələbatlarının müəyyən edilməsi üçün səmərəli bir metodikanın işlənməsi və onun əsasında növbəti illər üçün tədris proqramlarının, tədris-mövzu planlarının və tədris materiallarının hazırlanması məsələləri mühüm əhəmiyyət kəsb edir. İstənilən sahədə, o cümlədən vergi siyasəti və inzibatçılığı sahəsində islahatların həyata keçirilməsi elmi cəhətdən əsaslandırılmış konsepsiyalara söykənməlidir. Bu baxımdan, nazirliyin struktur vahidlərinin və bölmələrinin tövsiyə və təklifləri əsasında araşdırılması zəruri olan prioritet mövzuların müəyyənləşdirilməsi, onların tətbiqinin reallaşdırılması məsələləri hazırda yüksək aktuallıq kəsb edir. Qeyd olunan istiqamətlərdə koordinasiyanın həyata keçirilməsi və vahid yanaşmanın təmin olunması Tədris-metodiki Şuranın yaradılmasını zəruri edən başlıca amillər olub.

***- Vergilər sahəsində təlim və tədris prosesində hazırda hansı problemlər özünü büruzə verir və onların aradan qaldırılması üçün nə kimi tədbirlər həyata keçirilir?***

- Şübhəsiz, yoluna qoyulmalı məsələlər kifayət qədərdir. Bunları yaradan əsas səbəblər beynəlxalq təcrübəyə əsaslanan təlim və tədris prosesinin Tədris Mərkəzində aparılan islahatlarla bir araya gətirilməsinin və tətbiq edilməsinin, müasir təlim vasitələrinin hazırlanaraq çap olunmasının arzu etdiyimizdən çox vaxt aparmasıdır.

Bununla belə, qeyd etmək istərdim ki, artıq mərkəzdə tədris sahəsində beynəlxalq və yerli ekspertlərin cəlb olunması ilə müasir formada daimi və fasiləsiz tədris prosesi təşkil edilib, 2013-cü il üçün tədris kataloqu və modulları nəşr olunub. Təlim sahəsində isə əsas istiqamət kimi İKT və innovativ metodların vasitəsilə e-təlim formalarının tətbiqi müəyyən edilib.

***- Tədris kursları, onların keçirilmə qaydaları, davametmə müddətləri və son 5 il ərzində statistik göstəricilər haqqında məlumat verərdiniz.***

- Məlumat üçün bildirim ki, 2013-cü il üçün Vergilər Nazirliyi sisteminin tədris və təlim tələbatı müəyyən edilib və nazirin əmri ilə 2013-cü il üçün Tədris Mərkəzində keçiriləcək tədris və təlim kurslarının qrafiki təsdiqlənib. Bununla əlaqədar olaraq, vergi orqanı əməkdaşlarının peşə hazırlığının və tədris tələbatının təmin edilməsi üçün Tədris Mərkəzində və müvafiq vergi orqanlarında ixtisaslaşmış tədris modelləri çərçivəsində ixtisasartırma kursları, vergi orqanlarında xidmətə yeni qəbul edilmiş heyət üçün ilkin hazırlıq, yenidən hazırlanma kursları və treninqlər təşkil edilir. Tədris prosesi ənənəvi təlim metodu ilə, real vaxt rejimində məsafədən - «distant» təlim metodu ilə və kombinə edilmiş təlim metodu - «ənənəvi» və «distant» təlim metodlarının birgə tətbiqi ilə təşkil edilir. Təlim alətləri kimi «Case» materiallarından, yəni kurs materialları toplusundan, tədris kataloqundan və modullardan istifadə edilir. Əməkdaşların kombinə edilmiş təlim metodu tətbiq edilməklə ilkin hazırlığı üçün 2,5 ay, ixtisasartırma kursları üçünsə 10-15 gün müddət nəzərdə tutulur. Tədris Mərkəzində, həmçinin, müxtəlif fəaliyyət istiqamətlərini əhatə edən 1-5 günlük treninqlər də keçirilir. Son 5 il müddətində burada 32 ixtisasartırma, 36 ilkin hazırlıq kursu və 50 qısamüddətli treninq keçirilmişdir. İxtisasartırma kurslarında 581 nəfər (bunlardan 426-sı mütəxəssislər, 155-i isə orta menecerlər olmuşdur), ilkin hazırlıq kurslarında 733 nəfər, qısamüddətli treninqlərdə isə 1180 nəfər iştirak etmişdir.

***- Hazırda tədris prosesində, əsasən, hansı təlim metodlarından istifadə edilir və onların fərqləndirici xüsusiyyətləri nələrdir?***

- Tətbiq edilən tədris metodları və üsulları təkmil olduqda, tədris prosesi də bir o qədər səmərəli olur. Təlim və tədris prosesinin daha da yaradıcı olmasını, müxtəlif üsullar vasitəsilə qavranılmasını və qəbul edilməsini, dinləyicilərin fəal iştirakının sürətləndirilməsini və stimullaşdırılmasını təmin edə bilən işgüzar oyunlardan, konkret halların təhlili üsulundan, məşq oyunlarından, kollektiv müzakirə - «beyin hücumu» üsulundan geniş istifadə olunur. Hazırda Tədris Mərkəzində təşkil edilən təlim kurslarında beynəlxalq təcrübədə geniş tətbiq olunan «Open space» və «World cafe» təlim metodları daha fəal istifadə edilir. Tədris prosesinin əsas fərqləndirici xüsusiyyətləri tədris planlarının olması, bu planların tərtibində ekspertlərin iştirak etməsi və onların tədris prosesinə təlimçi kimi cəlb olunması, prosesin zəruri təqdimat materialları ilə təmin edilməsi və dinləyicilərin biliklərinin qiymətləndirilməsi zamanı çoxballı sistemdən istifadə edilməsidir.

***- Vergi sistemində tədrisin keyfiyyəti necə müəyyənləşdirilir? Son dövrlər tətbiq olunan ilkin və yekun qiymətləndirmənin nəticələri barədə nə deyə bilərsiniz?***

- Vergi sistemində tədrisin keyfiyyəti bir çox amillərlə müəyyənləşdirilir. Bunlara tədris prosesinin təşkilini, tədris-metodiki və texniki təminatı, tədris materiallarının keyfiyyətini, təlimçilərin tədris təcrübəsini və biliklərini təqdim etmək bacarığını, dinləyicilərin tədris prosesində fəallığını, biliklərin yekun qiymətləndirilməsini aid etmək olar. Son 5 ilin təhlili göstərir ki, ixtisasartırma kursları ilə ilkin hazırlıq kursları arasında ilkin və yekun qiymətləndirmə arasındakı fərq müxtəlifdir. Əgər ixtisasartırma kurslarında ilkin qiymətləndirilmənin nəticələri, yəni dinləyicilərin bilik və peşə hazırlığı səviyyəsi orta hesabla 62,5% olmuşdursa, yekun qiymətləndirilmənin nəticələri 76,6% olmuşdur. İlkin hazırlıq kurslarında isə ilkin qiymətləndirilmənin nəticələri orta hesabla 61,1% olmuşdursa, yekun qiymətləndirilmənin nəticələri 83,3% təşkil etmişdir.

***- Perspektivdə Tədris Mərkəzinin qarşısında duran prioritet məsələlər, təlim prosesində tətbiq olunacaq yeni metodlar haqqında məlumat verərdiniz...***

- Tədris Mərkəzinin qarşısında duran prioritet istiqamətlər respublikanın müxtəlif ali təhsil ocaqları ilə korporativ seminarların və birgə kursların təşkilindən, təlim materiallarının elektron məlumat arxivinin yaradılmasından, video-təlimin yeni metodunun yaradılmasından və video-konfransların təşkilindən, xarici tədris mərkəzləri ilə əlaqələrin möhkəmləndirilməsindən, əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin genişləndirilməsindən ibarətdir. Təhsil və tədris sahəsində isə prioritet istiqamətlər təlimçilərin ixtisas səviyyəsinin artırılması, təhsil və tədris proqramlarının təkmilləşdirilməsi, tədrisin keyfiyyətinin yüksəldilməsi, beynəlxalq əməkdaşlığın səviyyəsinin inkişaf etdirilməsidir.

**Arzu İBRAHİMOVA**



Akif Musayev
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar
Baş İdarəsinin rəisi

Rakurs

## Sürətli amortizasiya

İqtisadi nəzəriyyədə əsas vəsaitlərin fiziki və mənəvi cəhətdən köhnəlməsi amortizasiya adlandırılır. Təsərrüfat fəaliyyətində istifadə olunan əsas vəsaitlərin fiziki köhnəlməsi onların dəyərinin müəyyən normalar daxilində istehsal olunan malların (işlərin, xidmətlərin) dəyərinə aid edilməsi şəklində baş verir. Təcrübədə amortizasiyanın iki cür norması fərqləndirilir: bunlardan biri mühasibat uçotu, digəri isə vergitutma məqsədləri üçün nəzərdə tutulur.

Vergitutma məqsədləri üçün müəyyən olunmuş amortizasiya normaları amortizasiya ayırmalarının xərcə silinməsinin vergi tənzimlənməsi məqsədini daşıyır. Bu normalar üzrə hesablanmış amortizasiya ayırmaları xərclərə aid edilməklə vergi tutulan mənfəəti azaldır və həmin məbləğ müəssisənin sərəncamında qalan mənfəətin formalaşmasında istifadə olunur. Buna görə də əsas vəsaitlərin vergi məqsədləri üçün amortizasiya olunması mexanizminin düzgün müəyyən edilməsi vacib məsələlərdən biridir. Onun optimal həlli istehsalın genişləndirilməsində və elmi-texniki inkişafa investisiya qoyuluşları üçün maliyyə mənbəyinin yaradılmasında böyük rol oynayır.

Beynəlxalq təcrübədə fizki və mənəvi cəhətdən köhnəlmiş əsas vəsaitlərin silinməsi prosesinin sürətləndirilməsi və onların daha müasirləri ilə əvəz olunmasının stimullaşdırılması məqsədilə sürətli amortizasiya mexanizminin tətbiqinə geniş yer verilir. Sürətli amortizasiya, adətən, mövcud amortizasiya normalarının iki dəfəyədək artırılmasını nəzərdə tutur. Artırılmış amortizasiya normaları tətbiq olunmaqla istehsal prosesində istifadə edilən əsas vəsaitlərin tez bir zamanda aşınması baş verir. Hesablanmış amortizasiya ayırmaları xərcə aid edilməklə vergi yükü aşağı salınır və müasir avadanlıqların alınmasına sərf ediləcək sərbəst vəsaitlərin formalaşdırılmasına imkan yaranır.

*Sürətli amortizasiya mexanizminin tətbiqinin yüksək rentabelliyə malik olan müəssisələr tərəfindən seçilməsi daha məqsədəuyğundur*

Mahiyyət etibarilə sürətli amortizasiya mexanizminin tətbiqi əsas vəsaitlərin dəyərinin amortizasiya ayırmaları şəklində silinməsi tempinin həmin vəsaitlərin istehlak xassələrinin və dəyərinin itirilməsi tempinin üstələməsini nəzərdə tutur. Qeyd etmək lazımdır ki, sürətli amortizasiya mexanizminin tətbiqinin yüksək rentabelliyə malik olan müəssisələr tərəfindən seçilməsi daha məqsədəuyğundur. Çünki belə müəssisələrin istehsal etdiyi məhsulun dəyəri bazar qiymətlərindən xeyli aşağı olduğundan sürətli amortizasiyanın tətbiqi zamanı onların məhsulun maya dəyərini artırmağa imkanları olur. İstehsal etdikləri məhsullarının maya dəyəri bazar qiymətinə kifayət qədər yaxın olan müəssisələrə gəldikdə isə vəziyyət bir qədər dəyişir. Belə ki, maya dəyərinin istənilən artımı, o cümlədən sürətli amortizasiya nəticəsində amortizasiya ayırmalarının artması müəssisəni istehsal olunan məhsulların satış qiymətini artırmağa məcbur edir. Məhsulun qiymətinin artırılması isə onun satış həcminin aşağı düşməsinə gətirib çıxaracaqdır. Ona görə də müəssisə sürətli amortizasiyanı tətbiq etməyə maraqlı olmur. Bu zaman müəssisələr tərəfindən nəinki sürətli amortizasiya tətbiq edilmir, hətta mövcud amortizasiya normalarının aşağı salınması ilə bağlı tədbirlər görülür. Sürətli amortizasiyanın tətbiqinin məqsədəuyğun olmadığı başqa bir hal isə minimum bazar qiyməti ilə məhsul buraxılışı strategiyasının həyata keçirilməsidir.

Məlum məsələdir ki, az xərclər hesabına rəqabətqabiliyyətli məhsulun buraxılması bazar iqtisadiyyatı şəraitində uğurlu biznes fəaliyyətinin ən əsas amillərindəndir. Buna nail olunması üçün istehsalçı istənilən vaxt daha proqressiv, qənaətcil texnika və texnologiyaya tez bir zamanda keçmək imkanına malik olmalıdır. Bu məqsədlə lazım olan kapital qoyuluşlarının əldə olunmasını təmin edən iqtisadi alətlərdən biri də sürətli amortizasiya mexanizminin tətbiqidir.

Beynəlxalq Valyuta Fondunun ekspertlərinin fikrincə, sürətli amortizasiyanın tətbiq olunması iqtisadi tənəzzül şəraitində daha çox səmərə verir. Bundan irəli gələrək, dünyada baş verən iqtisadi böhranla əlaqədar ABŞ-da qəbul edilmiş antiböhran proqramına əsasən, müəssisələrə sürətli amortizasiya tətbiq etməklə köhnəlmiş əsas vəsaitləri silmək imkanı verilmişdir. Bu isə şirkətlərə büdcəyə ödənilməli olan vergilər üzrə təxminən 38 mlrd. dollar həcmində vəsaitə qənaət etməyə şərait yaradır.

Ümumiyyətlə, beynəlxalq təcrübədə sürətli amortizasiyanın tətbiqi öz müsbət tərəflərini göstərmişdir. Müxtəlif ölkələrdə sürətli amortizasiyanın tətbiqinin müxtəlif metodları mövcuddur. Misal üçün, Almaniyada istehsal binalarının və avadanlıqlarının amortizasiya normaları onlardan istifadənin birinci dörd ilində 10%, növbəti 3 ildə 5%, qalan 18 ildə 2,5% həcmində müəyyən edilmişdir. Kanadada isə təsərrüfat subyektləri əsas vəsaitlərin istifadə müddətlərini, amortizasiya normalarının maksimum və minimum hədlərini sərbəst qaydada müəyyən edə bilirlər.

Azərbaycanda əsas vəsaitlərin və digər aktivlərin vergitutma məqsədləri üçün amortizasiya normalarının maksimum hədləri Vergi Məcəlləsi ilə müəyyən olunmuşdur ki, bu da təsərrüfat subyektlərinə aktivlərin amortizasiyanı qoyulmuş həddən artıq olmamaqla sərbəst şəkildə tənzimləməyə imkan vermişdir. Bundan əlavə, qalıq dəyəri 500 manatadək olan əsas vəsaitlərin dəyərinin gəlirdən çıxılan xərclərə aid edilməsi barədə normanın Vergi Məcəlləsinə daxil edilməsini də köhnəlmiş əsas vəsaitlərin silinməsi prosesini sürətləndirən bir tədbir kimi qiymətləndirmək olar.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

# Hüquqi şəxslərin dövlət qeydiyyatı

*Hüquqi şəxs kimi dövlət qeydiyyatına alınan zaman yol verilən yanlış məlumatlar hansı məsuliyyətə səbəb ola bilər?*

«Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunun (bundan sonra - Qanun) 4.1-ci maddəsində qeyd edilmişdir ki, Azərbaycan Respublikasının ərazisində hüquqi şəxs statusu almaq istəyən qurum, habelə xarici hüquqi şəxsin nümayəndəliyi və ya filialı dövlət qeydiyyatına alınmalı və dövlət reyestrinə daxil edilməlidir. Kommersiya təşkilatları, habelə xarici hüquqi şəxslərin nümayəndəlikləri və ya filialları yalnız dövlət qeydiyyatına alındıqdan sonra fəaliyyət göstərə bilərlər. Qanunun 4.2-ci maddəsinə əsasən, dövlət qeydiyyatına alınmış hüquqi şəxslərin nümayəndəlik və ya filialları və digər qurumları dövlət reyestrinə daxil edilməlidir. 9.1-ci maddədə isə qeyd edilmişdir ki, hüquqi şəxslərin, xarici hüquqi şəxsin nümayəndəlik və ya filiallarının təsis sənədlərinə edilən hər bir dəyişiklik, eləcə də qeydə alınmış faktların hər bir sonrakı dəyişikliyi qeydiyyata alınmalıdır.

Qanunun 9.2-ci maddəsinə əsasən, dəyişikliyin qeydiyyata alınması üçün həmin dəyişikliyin baş verdiyi andan 40 gündən gec olmayaraq Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına ərizə ilə müraciət edilməlidir. Ərizədə baş vermiş dəyişiklik göstərilməli və həmin dəyişikliyi təsdiq edən sənədlər təqdim edilməlidir. Dəyişiklik «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunun 11. 3-cü maddəsinin tələblərinə zidd olmadıqda, müvafiq icra hakimiyyəti orqanı 5 gün müddətində dəyişikliyi qeydiyyata alır.

Qanunun 4.6-cı maddəsinə görə, hüquqi şəxs statusu almaq istəyən qurumun, xarici hüquqi şəxsin nümayəndəlik və ya filialının dövlət qeydiyyatına alınması, habelə Azərbaycanda dövlət qeydiyyatına alınmış hüquqi şəxsin nümayəndəliyinin və ya filialının və digər qurumlarının dövlət reyestrinə daxil edilməsi, eləcə də təsis sənədlərində edilmiş dəyişikliklərin və reyestrdə qeydə alınmış faktların sonrakı dəyişikliyinin dövlət qeydiyyatına alınması zamanı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına yanlış məlumatların təqdim edilməsinə yol verilmir.

İnzibati Xətalar Məcəlləsinin 200-1-ci maddəsinə əsasən, hüquqi şəxs statusu almaq istəyən qurumun, xarici hüquqi şəxsin nümayəndəlik və filialının dövlət qeydiyyatına alınması, habelə Azərbaycanda dövlət qeydiyyatına alınmış hüquqi şəxsin nümayəndəliyinin və ya filialının və digər qurumlarının dövlət reyestrinə daxil edilməsi, eləcə də təsis sənədlərində edilmiş dəyişikliklərin və reyestrdə qeydə alınmış faktların sonrakı dəyişikliyinin dövlət qeydiyyatına alınması zamanı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına (Vergilər Nazirliyinə bilavasitə tabe olan vergi orqanları, habelə Naxçıvan Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri və Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsi) yanlış məlumatların verilməsinə görə fiziki şəxslər yeddi yüz manat, hüquqi şəxslər isə dörd min manat məbləğində cərimə edilir.

İnzibati Xətalar Məcəlləsinin 360-cı maddəsinə görə, İnzibati Xətalar Məcəlləsinin 200-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta haqqında işlərə rayon (şəhər) məhkəmələri baxır.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz:

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən aparılmış istintaq tədbirləri nəticəsində Nadir Teymur oğlu Aslanovun «İnter-T» MMC və «Aqat» MMC-nin faktiki rəhbəri olarkən Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.1.1, 16.1.3, 16.1.7, 53.1, 71.1, 71.2, 77,3, 78.1, 82, 174, 175 və 177.1-ci maddələrinin tələblərini pozaraq həmin müəssisələrin qeydiyyatda olduğu vergi orqanına təqdim etdiyi bəyannamələrə gəlirlər və xərclər barədə biləbilə təhrif olunmuş məlumatlar daxil etdiyi, külli miqdarda əlavə dəyər vergisini dövlət büdcəsindən yayındırdığı aşkar olunmuşdur.

O, «İnter-T» MMC-nin faktiki rəhbəri olduğu müddətdə 2009-cu ilin may ayı üzrə 1107,19 manat, iyun ayı üzrə 57985,93 manat, habelə ƏDV tutulan əməliyyatların olmamasına dair bəyannamə təqdim edərək həmin ilin avqust ayında 284,04 manat, sentyabr ayında 517,79 manat, oktyabr ayında 37669,61 manat, noyabr ayında 203,58 manat olmaqla, ümumilikdə 97768,18 manat məbləğində əlavə dəyər vergisini dövlət büdcəsinə ödəməkdən yayınmışdır.

Bundan başqa, N.Aslanov «Aqat» MMC-nin qeydiyyatda olduğu vergi orqanına təqdim etdiyi 2009-cu ilin noyabr ayı üzrə əlavə dəyər vergisi bəyannaməsində ƏDV tutulan dövriyyəni 382522,71 manat, ƏDV-ni 68854,09 manat göstərməli olduğu halda, dövriyyənin olmamasını göstərərək ƏDV-ni dövlət büdcəsinə ödəməkdən yayınmışdır.

N.Aslanova qarşı Azərbaycan Respublikası CM-in 213.2.2-ci maddəsi üzrə cinayət işi qaldırılmışdır. Təqsirləndirilən şəxs qismində dindirilən N.Aslanov elan edilən ittiham üzrə özünü tam təqsirli bildiyini etiraf etmişdir. «İnter-T» MMC və «Aqat» MMC-də direktor vəzifəsində işləyərkən müxtəlif növ neft məhsullarının alqı-satqısı ilə məşğul olduğunu, şəxsən özünün müxtəlif müəssisələrin yerləşdiyi ünvanlara gedərək təkliflər etdiyini, qiymətlərə razılaşdıqdan sonra həmin müəssisələrin rəhbərləri ilə alqı-satqı müqavilələri bağladığını və əməliyyatlar həyata keçirdiyini qeyd etmişdir. O, həmçinin, həmin dövrdə bütün işləri özü gördüyünü, alınmış və satılmış malların daşınmasını isə müxtəlif gündəlik yük maşınları vasitəsilə həyata keçirdiyini, müəssisələrlə razılaşdıqdan sonra malları təhvil - təslim etdiyini, bu işlərdə heç kimin kömək göstərmədiyini bildirmişdir.

Beləliklə, N.Aslanov Azərbaycan Respublikası CM-in 213.2.2-ci maddəsi ilə ittiham elan olunmuş, həbs qəti imkan tədbiri seçilmişdir. Yasamal Rayon Məhkəməsinin 12 iyul 2012-ci il tarixli hökmü ilə o, Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi ilə təqsirli bilinərək 3 il müddətinə dövlət və yerli özünüidarə orqanlarında maddi məsul vəzifə tutma hüququndan məhrum edilməklə 4 il 6 ay müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuşdur.

**Arzu İBRAHİMOVA**

# Elektron təhlükələrə qarşı etibarlı müdafiə sistemi...

*Azərbaycanda «Elekton hökumət»in qurulması və elektron xidmətlərin çeşidinin artması, informasiya cəmiyyətinin formalaşması bu sahədə elektron təhlükələrdən qorunma zərurətinin də güclənməsinə səbəb olur. Ölkəmizdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı etibarlı və möhkəm təhlükəsizlik sisteminin yaradılmasını tələb edir. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (RİTN) «İKT ili» çərçivəsində əsas hədəflərdən biri kimi ölkədə informasiya təhlükəsizliyi sisteminin inkişaf etdirilməsini vacib sayır və təhlükəsizliyin təmin olunması, etibarlı müdafiə sisteminin qurulması məqsədilə xüsusi tədbirlər planı hazırlayıb. Nazir müavini Elmir Vəlizadə bildirib ki, bir ay əvvəl yaradılmış yeni qurum - Elektron Təhlükəsizlik Mərkəzi məhz bu istiqamətdə fəaliyyət göstərəcək.*

Elektron Təhlükəsizlik Mərkəzinin əsas işi Azərbaycanın informasiya infrastrukturunun, ölkə istifadəçilərini çoxsaylı mənbələrdən gələn kiberhücumlar, qanunsuz müdaxilələr, ziyanverici proqramlar kimi təhdidlərdən qorumaq, təhlükələrə hazırlıq səviyyəsini artırmaq olacaq. Elmir Vəlizadənin sözlərinə görə, Azərbaycanda innovasiyaların tətbiqi dairəsinin genişləndiyi, idarəetmə sisteminin yeni inkişaf meyarlarına uyğunlaşdığı, «Elektron hökumət» quruculuğunun yeni mərhələdə inkişaf etdiyi və dövlət strukturlarında elektron xidmətlər şəbəkəsinin genişləndiyi bir dövrdə təhlükəsizlik məsələlərinə diqqət mühüm əhəmiyyət kəsb edir. Qloballaşan dünyada informasiya texnologiyalarının yaratdığı imkanlardan sui-istifadə etməklə cinayətin yeni növləri yaranır, dövlətin ərazi bütövlüyü ilə bağlı məlumatlar təhrif edilir, terrorizm ideologiyasının təbliğ edilməsi və terror aktlarının planlaşdırılması üçün internet şəbəkəsindən fəal şəkildə istifadə edilir.

İnformasiya təhlükəsizliyinin təmin edilməsi məsələlərində cəmiyyətin bütün qüvvələrinin - dövlət, biznes və vətəndaş cəmiyyətinin, xüsusən cəmiyyətin intellektual potensialının səfərbər edilməsi vacibdir. İnformasiya təhlükəsizliyinin lazımi səviyyədə təmin edilməsi dövlətin, cəmiyyətin və insanların fəaliyyətinin vacib şərtlərindən biridir. Qlobal informasiya cəmiyyətinin formalaşması nəticəsində dövlətlərarası ziddiyyətlər və münaqişələr virtual məkana da keçir. İnformasiya-kommunikasiya texnologiyalarının geniş yayılması və istifadəsi nəticəsində virtual məkanda formalaşan şəbəkəni, həmçinin istifadəçiləri, informasiya resurslarını və sistemlərini mümkün təhdidlərdən qorumaq məqsədilə informasiya təhlükəsizliyi olduqca vacibdir.

Nəzərə alsaq ki, son zamanlar xarici və digər mənbələrdən elektron təhlükələr çoxalıb, xüsusilə də MDB regionunda informasiya şəbəkələrinə müdaxilə, kiberhücumların geniş xarakter alması müşahidə edilir, bu mənada, güclü təhlükəsizlik şəbəkəsinin qurulması əsas vəzifələrdəndir. Buna görə, ilk növbədə, bu cür təhlükələrin qarşısının alınması üçün tətbiq edilən vasitələr haqqında daxil olan məlumatlar toplanmalı və təhlil olunmalıdır. Yeni qurum informasiya təhlükəsizliyi siyasətinin təmin olunması ilə bağlı bir sıra mühüm vəzifələri də icra edəcək. Dövlət orqanlarının informasiya-telekommunikasiya sistemləri və şəbəkələrinin, idarələrarası elektron sənəd dövriyyəsinin, onlara aid internet informasiya resurslarının təhlükəsizliyini təmin edəcək, elektron təhlükələrə qarşı qabaqlayıcı tədbirlər görəcək.

RİTN hesab edir ki, Elektron Təhlükəsizlik Mərkəzinin fəaliyyəti Azərbaycanda informasiya cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən silsilə tədbirlərin davamlılığını genişləndirəcək, «Elektron hökumət»in yaradılması sahəsində addımları sürətləndirəcək. Respublikamızda elektron xidmətlər şəbəkəsinin geniş miqyas alması baxımından, qeyd olunan qurumun xüsusi əhəmiyyət daşıdığı ayrıca vurğulanmalıdır. Ümumiyyətlə, yeni innovativ layihələrin çevikliyini təmin etmək, investisiya mühitini yaxşılaşdırmaq, investorların maraqlarını təmin etmək, birgə layihələrdə iştirak imkanı yaratmaq məqsədilə e-xidmətlərin tətbiqi mühüm yer tutur. E-xidmətlər sistemli və kreativ bir proses olmaqla, sonda «Elektron hökumət»in tam təmin olunmasına hərtərəfli baza yaradır...




**E.CƏFƏRLİ**

# İnteraktiv vergi xidmətləri

***Vergilər Nazirliyinin həyata keçirdiyi xidmətlər barədə təlimat səciyyəli silsilə yazıları davam etdiririk.***

**Hüquqi şəxsin fəaliyyətinin onlayn dayandırılması**

Bu xidmətdən Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) almış hüquqi şəxslər istifadə edə bilərlər. Xidmətin göstərilməsi üçün heç bir ödəniş tələb olunmur. Xidmət www.e-taxes.gov.az, www.e-gov.az elektron ünvanında təqdim edilir.

Xidmətdən istifadə etmək üçün istifadəçinin Vergilər Nazirliyi tərəfindən verilmiş şifrəsi, parolu və ya gücləndirilmiş elektron imzası olmalıdır. Bunlardan istifadə etməklə sistemə daxil olduqda istifadəçiyə təklif edilən ərizə formasını doldurmaq və təsdiq etmək imkanı yaranır. Ərizə iş vaxtı başa çatdıqdan sonra və ya qeyri-iş günündə sistemə daxil edilmişdirsə, bu halda onun icrası həmin gündən sonrakı ilk iş gününün əvvəlində həyata keçirilir.

Hüquqi şəxslərin elektron formada fəaliyyətinin dayandırılması ərizəsi İnternet Vergi İdarəsi portalının «Onlayn karguzarlıq» bölümü üzərindən işlənilir. Bu məqsədlə *«Yeni müraciət»* düyməsi sıxılır və açılan pəncərədə:

«Kimə» siyahısından - Vergilər Nazirliyi;

«Müraciətin növü» siyahısından - ərizə;

«Sənədin növü» siyahısından - Hüquqi şəxsin fəaliyyətinin dayandırılması ərizəsi seçilir və *«Qəbul»* düyməsi sıxılır.

Açılan ekranda əməliyyatlar aşağıdakı ardıcıllıqla yerinə yetirilir:

- fəaliyyətin və əməliyyatın dayandırıldığı tarix daxil edilir;
- fəaliyyətin və əməliyyatın bərpa ediləcəyi tarix daxil edilir;
- fəaliyyət dayandırıldığı dövrdə muzdlu işçilərə əməkhaqqı ödənilib-ödənilməməsi seçilir;
- Fəaliyyətini dayandırdığı tarixə mövcud aktivlərinin qalıq dəyəri (manatla): mal qalığı, pul vəsaitləri, debitor borcları seçilir;
- *«İrəli»* düyməsi sıxılır.

Sonra daxil edilmiş məlumatların yoxlanılması üçün təsdiqləmə ekranı gəlir. İstifadəçi məlumatların doğruluğuna əmin olduqda onu təsdiqləmək üçün *«Qəbul»* düyməsini, ondan imtina etmək istədikdə isə *«İmtina»* düyməsini sıxır. Təsdiqdən sonra ekrana «Fəaliyyətin dayandırılması» barədə Bildiriş çıxır.

Xidmətin yerinə yetirilməsi nəticəsində hüquqi şəxsin fəaliyyəti ərizədə göstərilən müddətə dayandırılır.

Onu da deyək ki, onlayn rejimdə fəaliyyətin dayandırılması barədə təqdim edilmiş ərizə üzrə məlumatlar AVİS-ə daxil edilmədiyi halda, hüquqi şəxs tərəfindən növbəti fəaliyyətin dayandırılması ərizəsinin qeydiyyata alınmasına məhdudiyyət qoyulmuşdur. Hüquqi şəxs tərəfindən eyni dövr üzrə yalnız bir dəfə fəaliyyətin dayandırılması barədə ərizə təqdim oluna bilər. Qeyd edilən tələblərə əməl edilmədikdə sorğunun yerinə yetirilməsindən imtina olunur.

**Hüquqi şəxsin fəaliyyətinin onlayn bərpası**

Bu xidmətdən istifadə hüquqi şəxsin fəaliyyətinin onlayn dayandırılması xidmətində olduğu kimidir. Xidmətdən istifadə etmək üçün hüquqi şəxsin fəaliyyətinin bərpa edilməsi barədə ərizə tələb olunur. Xidmətin təqdim edildiyi elektron ünvandan ərizədə olan məlumatlar interaktiv şəkildə istifadçi tərəfindən sistemə daxil edilir.

Hüquqi şəxslərin elektron formada fəaliyyətinin bərpası ərizəsi İnternet Vergi İdarəsi portalının «Onlayn karguzarlıq» bölümü üzərindən işlənilir. Bu məqsədlə *«Yeni müraciət»* düyməsi sıxılır və açılan pəncərədə:

«Kimə» siyahısından - Azərbaycan Respublikasının Vergilər Nazirliyi;

«Müraciətin növü» siyahısından - ərizə;

«Sənədin növü» siyahısından - Hüquqi şəxsin fəaliyyətinin bərpası ərizəsi seçilir və *«Qəbul»* düyməsi sıxılır.

Açılan ekranda fəaliyyətin bərpa tarixi daxil edilir və *«İrəli»* düyməsi sıxılır.




İstifadəçi məlumatların doğruluğuna əmin olduqda onu təsdiqləmək üçün *«Qəbul»* düyməsini, ondan imtina etmək üçün isə *«İmtina»* düyməsini sıxır. Təsdiqdən sonra ekrana «Fəaliyyətin bərpası» barədə Bildiriş çıxır.

Bildirişdə fəaliyyətin bərpa olunduğu tarixdən etibarən Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə müvafiq bəyannamələrin vergi orqanına təqdim edilməli olduğu göstərilir.

Onlayn rejimdə fəaliyyətin bərpası barədə təqdim edilmiş ərizə üzrə məlumatlar AVİS-ə daxil edilmədiyi halda, istifadəçi tərəfindən növbəti fəaliyyətin bərpası ərizəsinin qeydiyyata alınmasına məhdudiyyət qoyulmuşdur. Hüquqi şəxsin fəaliyyəti dayandırılmamışdırsa, bu halda fəaliyyətin bərpası ərizəsi təqdim edilə bilməz. Bu halda sorğunun yerinə yetirilməsindən imtina olunur. İmtinaya əsas olmadıqda isə hüquqi şəxsin fəaliyyəti ərizədə gostərilən tarixdən bərpa edilir.

Elektron xidmətin göstərilməsi zamanı aparılan proseslərə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin proqram təminatı vasitəsilə onlayn qaydada nəzarət edilir. İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə inzibati qaydada yuxarı səlahiyyətli orqana və məhkəməyə şikayət edə bilər.

**AYTƏN**

# Neftin ucuzlaşması dövlət büdcəsi gəlirlərinə mənfi təsir göstərməyəcək

Bu ayın əvvəlində ICE London qitələrarası birjasında iyunda ixrac ediləcək «Brent» markalı neftin bir barelinin dəyərinin 2,42 dollar və ya 2,4% azalaraq 99,95 dollar səviyyəsində müəyyənləşdirilib. Nyu-York əmtəə birjalarında keçirilən elektron ticarət əməliyyatlarının gedişində də neftin ixracına dair iyun müqavilələrinin dəyəri 2,43 dollar və ya 2,6% azalaraq, bir barelə görə 91,03 dollar təşkil edib.

Cari ilin aprel ayında dünya bazarında «Brent» markalı neftin bir bareli 101,92 dollara, «Urals» nefti - 101,82 dollara, «BTC FOB Ceyhan» tipli xam neft isə 104,57 dollara satılıb. Ötən ilin apreli ilə müqayisədə «Brent» markalı neft 14,7%, «Urals» markalı neft 13,4%, «BTC FOB Ceyhan» tipli xam neft isə 14,6% ucuzlaşıb. Bununla yanaşı, aprel ayında dünya bazarında etilləşdirilmiş benzinin qiyməti (1 ton üçün) 932,62 dollar, təyyarə yanacağının qiyməti 902,81 dollar, dizel yanacağının qiyməti 856,07 dollar, 1%-li kükürdlü mazutun qiyməti 586,18 dollar təşkil edib. Ötən ilin apreli ilə müqayisədə benzinin qiyməti 18,7%, təyyarə və dizel yanacağının qiyməti 14,5%, kükürdlü mazutun qiyməti isə 21,4% aşağı düşüb.

Azərbaycan neftinin dünya bazarındakı ötən aydakı orta qiyməti bir barel üçün 105,42 dollar təşkil edib. Dövlət Neft Şirkətinin (ARDNŞ) Marketinq və iqtisadi əməliyyatlar idarəsindən verilən məlumata görə, ilin ilk 4 ayında Azərbaycan neftinin orta qiyməti bir barel üçün 112,93 dollar olub ki, bu da dövlət büdcəsində nəzərdə tutulan baza həddindən 12,93 dollar və ya 13% artıqdır.

Bəs dünya bazarında neftin qiymətinin ucuzlaşmasının Azərbaycanın dövlət büdcəsinin icrasına hansı təsirləri ola bilər?

İqtisadi inkişaf nazirinin müavini Sevinc Həsənova bildirib ki, neftin qiymətinin aşağı düşməsi ən pis halda Dövlət Neft Fondunun gəlirlərinə mənfi təsir edə bilər, büdcənin icrasına isə onun heç bir ciddi təsiri olmayacaq. Çünki Dövlət Neft Fondundan büdcəyə ödəniləcək konkret məbləğ artıq təsdiqlənib. Nazir müavini əlavə edib ki, neftin qiymətinin dəyişməsi iqtisadi amillərdən daha çox mövsümi səbəblərlə bağlıdır və bir qədər sonra qiymətlər əvvəlki həddinə qayıdacaq: «Qış mövsümünün başa çatdığı zamanlarda yanacağa və enerjiyə tələbatın aşağı düşməsi ənənəvidir. Buna görə də bir qədər sonra qiymətlərin yenidən əvvəlki həddinə qayıtmasını gözləyirik və yekun qiymət hətta 2013-cü ilin büdcəsində nəzərdə tutulandan da artıq ola bilər».

Xatırladaq ki, Azərbaycanın 2013-cü ilin dövlət büdcəsində neftin baza qiyməti 100 dollar/barel səviyyəsində nəzərdə tutulub.

Azərbaycan hər il orta hesabla 30 milyard dollar dəyərində xam neft ixrac edir. Dövlət Neft Şirkətinin (ARNDŞ) prezidenti Rövnəq Abdullayevin sözlərinə görə, ölkəmizin illik neft hasilatı təxminən 42 milyon ton təşkil edir ki, bunun da 35 milyon tonu ixrac olunur.

**Rəşad SADIQOV**




# Pensiyaların artım mexanizmi təkmilləşdirilir

*2006-cı ildən ölkəmizdə yeni, beynəlxalq təcrübədə özünü doğrultmuş üçpilləli struktura (baza, sığorta və yığım hissələrindən ibarət) malik əmək pensiyaları sistemi fəaliyyətdədir. Yeni sistemin fəaliyyəti dövründə əmək pensiyalarının istər minimal məbləği (baza hissəsi), istərsə də orta aylıq məbləği əhəmiyyətli şəkildə artmışdır. Bütövlükdə pensiyaların artım mexanizminin bazar iqtisadiyyatının tələblərinə uyğun şəkildə həyata keçirilməsi mövcud maliyyə imkanlarının pensiyaçılar arasında daha ədalətli bölgüsünə şərait yaradır.*

**Məcburi sosial sığorta haqları üzrə daxilolmalar proqnozdan artıq icra olunub**

2013-cü ilin yanvar-mart aylarında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri 685,1 mln. manat təşkil etmişdir ki, bu da cari ilin proqnoz göstəricisindən 46,2 mln. manat (7,2%) çoxdur.

Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 2012-ci ilin müvafiq dövrünə nisbətən 41,5 mln. manat (13,9%) artaraq 339,3 mln. manat təşkil etmişdir. Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların 221,4 mln. manatı və ya 62,3%-i qeyri-büdcə sektorunun payına düşür.

Bu dövrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin və torpaq pay mülkiyyətçilərinin sosial sığortaya cəlb edilməsi də gücləndirilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən daxilolmalar 44,3%, torpaq pay mülkiyyətçilərindən daxilolmalar isə 85% artmışdır. Bu ilin ilk üç ayı ərzində pensiya və müavinətlərin maliyyələşdirilməsi üçün DSMF tərəfindən 605,5 mln. manat vəsait yönəldilmişdir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 5,7 mln. manat (0,9%) çoxdur. Pensiya xərcləri 2012-ci ilin birinci rübü ilə müqayisədə 0,8 4,5 mln. manat artaraq 592,2 mln. manat təşkil etmişdir. Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, 2013-cü ilin əvvəlindən bütün növ əmək pensiyalarının sığorta hissəsinə 1,1%-lik artım tətbiq olunmuşdur.

**Vətəndaşlara ödənilən müavinətlərin məbləği artır**

Bu il müharibə iştirakçılarına ayrılan birdəfəlik illik maddi yardımın məbləği 700 manata, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə ayrılan birdəfəlik illik maddi yardımın məbləği isə 300 manata çatdırılıb. Bunun üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 9 milyon manat vəsait ayrılıb. İlin sonuna kimi ödənilməyən vəsaitlər Maliyyə Nazirliyinin Mərkəzi Xəzinə Hesabına qaytarılacaq. Qeyd edək ki, 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə Azərbaycanda ödənilən birdəfəlik maddi yardımlar postsovet məkanında ən yüksək göstəricisidir.

Bildirək ki, ötən il ölkəmizdə müharibə iştirakçılarının sayı 2710, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərin sayı 26 min idi. Bu ilin mart ayına olan məlumatlara görə, onların sayı müvafiq olaraq 2300 və 23,5 min nəfər olub. 2013-cü ilin birinci rübündə əhaliyə 13,3 mln. manat məbləğində müavinət ödənilmişdir.

**Əmək pensiyalarının təyinatı avtomatlaşdırılacaq**

Azərbaycanda əmək pensiyalarının avtomatlaşdırılmış təyinatına 2013-cü il iyulun 1-dən başlamaq planlaşdırılır. DSMF-nin sədri Səlim Müslümovun sözlərinə görə, bu prosesin proqram təminatı üzrə işlər artıq yekunlaşıb və indi telefon-məlumat mərkəzinin formalaşdırılması işləri görülür. Əmək pensiyalarının avtomatlaşdırılmış təyinatına keçmək üçün yeganə problem 2006-cı ilə qədər pensiyaya çıxan pensiyaçıların stajı haqqında məlumatların toplanmasıdır. Staj haqqında məlumatlar olarsa, qanunvericiliyə əsasən, staj illərinin sayını 170 manata vurmaqla 2006-cı ilə qədər şəxsin pensiya kapitalını müəyyənləşdirmək mümkün olacaq. 2006-cı ilə qədər vətəndaşların iş stajını yalnız əmək kitabçaları əsasında müəyyənləşdirmək olar. Buna görə də vətəndaşların əmək kitabçalarındakı məlumatları fondun yerli şöbələrinə təqdim etmələri vacib məsələdir. DSMF rəhbəri bildirmişdir ki, vətəndaşlar pensiya yaşına çatanda onlara pensiyaların ödənilməsi ilə bağlı heç bir problem yaranmayacaq. Yəni iyulun 1-dən etibarən sistem bütün vətəndaşlar üçün açıq olacaq. Əmək stajı haqqında məlumat tam olan şəxslərdə pensiya təyinatı tam təmin ediləcək. 2006-cı il yanvarın 1-dək əmək stajı haqqında tam məlumatlar olmayan şəxslərə pensiya ödənişləri aşağı olacaq. Qeyd edək ki, hazırda Azərbaycanda əmək pensiyasının baza hissəsi 85 manatdır və DSMF yaxın bir neçə ay ərzində əmək pensiyalarının baza hissəsinin 15-20% artırılması üçün zəruri maliyyə bazasını formalaşdıracaq. Bu istiqamətdə işlər dövlət başçısının pensiya müavinətlərinin artırılmasına dair tapşırıqlarına uyğun aparılacaq.

**Fərdi uçot sistemi**

Hazırda ölkəmizin sığorta-pensiya sistemi məcburi dövlət sosial sığortası əsasında fəaliyyət göstərir və sistemin əsas məzmununu sığortaolunanlar üçün ödənilən sığorta haqlarının fərdi uçotunun qurulaması vətəndaşların pensiya təminatının onların fərdi hesablarında əks olunmuş pensiya kapitalına əsasən aparılması təşkil edir. Hər bir işləyən şəxsin gələcək sosial müdafiə hüquqları, yeni yaşa, əlilliyə və ya ailə başçısının itirilməsinə görə pensiyanın məbləği onun fərdi hesabında əks olunan məlumatlardan asılı olaraq müəyyənləşdirilir. Qeyd edək ki, bu yaxınlarda DSMF tərəfindən «Sığortaolunanlara məlumatların verilməsi» xidməti istifadəyə verilmişdir. Yeni elektron xidmət vasitəsilə vətəndaşlar DSMF-nin onlar üçün açdığı fərdi şəxsi hesablarında illər üzrə əks olunan pensiya kapitalına nəzarət etmək imkanı qazanıblar. Bu sistem şəffaflığın daha da artmasına xidmət etməklə yanaşı, həm işəgötürənlər üzərində ictimai nəzarətin təşkilinə, həm də yaxın gələcəkdə avtomatlaşdırılmış pensiya təyinatına imkan verir. Qeyd edək ki, cari ilin birinci rübündə DSMF tərəfindən əlavə olaraq 161.015 sığortaolunana fərdi şəxsi hesab açılaraq sosial sığorta şəhadətnamələri paylanılıb. 2013-ci il 1 aprel tarixinə olan statistikaya əsasən, Azərbaycanda fərdi şəxsi hesaba malik sığortaolunanların sayı 2.427.089 nəfər olub. Bu dövrdə fərdi uçot sistemində qeydiyyata alınan əcnəbilərin sayı isə 8,1% artaraq 14.864 nəfər təşkil edib.

**Arzu İBRAHİMOVA**

# Nağdsız ödənişlərin inkişafına xidmət edən yeni layihə

*Azərbaycanda inkişaf tendensiyası və müasir texnologiyalardan istifadənin hüdudlarının genişlənməsi bir çox xidmətlər kimi, onlayn ödənişlərə də tələbi artırıb və bu sahədə dövlət qurumları ilə yanaşı, özəl şirkətlət tərəfindən də sistemli tədbirlər görülür.*




Nağdsız ödənişlər sisteminin inkişafına öz töhfəsini verən layihələrin sayı artmaqdadır. «GoldenPay» şirkətinin bu günlərdə istifadəyə verdiyi yeni layihə də nağdsız ödənişlərin dövriyyəsinin genişləndirilməsinə xidmət edir. İnterfeys adlı ödəmə xidməti müştərilərə daha asan və rahat, eyni zamanda bir çox informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə ödənişləri həyata keçirməyə şərait yaradır. Vətəndaşlar interfeys xidməti vasitəsilə mobil telefon, internet ödənişləri ilə yanaşı, stasionar rabitə, kommunal, kabel TV şəbəkəsi üzrə xidmətlərə görə ödənişləri, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasinin saytında abituriyentlər üçün xidmət haqlarını ödəyəcəklər.

Yeni xidmətin üstünlüklərindən biri stasionar telefonlara aid ödənişlərin miqyasının genişləndirilməsidir. Bu xidmətdən Bakı, Sumqayıt, Gəncə şəhərləri ilə yanaşı, respublikanın 50-dən çox şəhər və rayon mərkəzlərinin sakinləri də yararlana biləcəklər. Onlar stasionar telefonlar üzrə danışıq və abunə borclarını onlayn ödəyəcəklər.

«GoldenPay» şirkətinin rəhbəri Fərid İsmayılzadənin sözlərinə görə, interfeys xidməti onlayn ödənişlər sisteminin daha təkmilləşdirilmiş elektron versiyasıdır. Əvvəlki ödəniş əməliyyatları ilə nisbətdə interfeysdə əməliyyatlar xeyli sadələşdirilib, ödəniş menyusuna giriş indi daha rahatdır. Bundan başqa, müştərilər üçün xüsusi təlimat menyusu yaradılıb ki, hər hansı texniki problem meydana çıxsa, onlara dərhal dəstək göstərilsin. Yeni interfeysin yaradılması zamanı ödəmə sisteminin istifadəçiləri və onlayn xidmətlər göstərən şirkətlərin təklifləri nəzərə alınıb. Belə ki, şirkətlət onlayn ödənişlə bağlı daim müştərini məlumatlandıracaq, onun telefonuna mesajlar göndəriləcək. Şirkət hansısa onlayn xidmətlərdən istifadə zamanı problem yarandıqda müştəriyə onun sorğusu əsasında bu xidmətlərin bərpa edilməsi barədə mesaj göndərəcək.

Hazırda nağdsız ödənişlərlə bağlı digər layihələr üzərində də iş gedir və yaxın vaxtlarda «GoldenPay» yeni ödəmə alətləri təklif edəcək. Bu xidmətlər sırasında onlayn sığorta və bank ödənişlərinin aparılması da nəzərdə tutulur. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi ilə birgə rayonlarda internet vasitəsilə ödəmənin genişləndirilməsi nəzərdə tutulur. Bölgələrdəki telekommunukasiya qovşaqlarında proqram təminatı hazırlanıb istifadəyə verilib. Artıq bir sıra rayonlarda internet vasitəsilə rabitə və internet haqlarını ödəmək mümkündür. Bu xidmət yaxın vaxtlarda ən uçqar yaşayış məntəqələrini də əhatə edəcək. Vətəndaşların respublikanın istənilən yerindən internet vasitəsilə rabitə borcların ödəməsindən sonra telefon maksimum 20 dəqiqə ərzində avtomatik olaraq açılacaq.

Yaxın günlərdə nağdsız ödənişlərin bir istiqaməti olan mobil ticarətlə bağlı yeniliklərin tətbiq edilməsi gözlənilir. Qarşıda duran hədəflərdən biri ticarət məntəqələrini onlayn ödəmələrə cəlb etməkdir.

Şirkətdə hesab edirlər ki, e-ticarətin genişlənməsi ölkənin vergi sistemi üçün də yeni perspektivlər yaradır. Bu məqsədlə Vergilər Nazirliyi elektron ödənişlər sahəsində ən yaxın tərəfdaşlardan hesab edilir: istifadəyə verilən intenet ödəmə xidmətlərindən biri vergilərin onlayn ödənişinin artırılmasından ibarətdir.

**E.CƏFƏRLİ**

# Mülkiyyət hüquqlarının qeydiyyat prosesi sürətlənib

## Bu, əmlak vergisi üzrə daxilolmalara öz müsbət təsirini göstərir

*Daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı və yüklülük arayışlarının alınması, müsadirə edilmiş əmlakın satışı ilə bağlı keçirilən hərraclarda iştirak etmək üçün elektron xidmətlərin tətbiqi genişləndirilir. Elektron xidmətlərin tətbiqi nəticəsində qeydiyyat müddətləri əsaslı şəkildə azaldılmışdır. Artıq vətəndaşlar təkrar qeydiyyatla bağlı sənədləri 7 gün ərzində, əmlak barədə arayışları 1-5 gün ərzində əldə etmək imkanına malikdirlər.*

Həyata keçirilən tədbirlər nəticəsində hüquqi və fiziki şəxslərin daşınmaz əmlakının dövlət qeydiyyatının sayı əhəmiyyətli dərəcədə artmışdır. Bu isə gələcəkdə həm bələdiyyələrin büdcəsinə ödəniləcək fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalara görə əmlak vergisinin, həm də dövlət büdcəsinə ödəniləcək əmlak vergisinin artımına səbəb olan bir faktor kimi dəyərləndirilir. Yeri gəlmişkən, qeyd edək ki, 2012-ci ildə dövlət büdcəsinə 105 mln. 087,4 min manat əmlak vergisi ödənilmişdir. Cari ilin birinci rübündə isə bu göstərici 28 mln. 790,6 min manat təşkil etmişdir. Torpaq vergisi üzrə isə ötən il dövlət büdcəsinə 30 mln. 596,1 min manat, cari ilin birinci rübündə 7 mln. 027, 4 min manat vəsait daxil olmuşdur.

Dövlət Əmlak Komitəsindən verilən məlumata görə, cari ilin 1 yanvar - 20 aprel tarixlərində ölkə üzrə 48 mindən çox daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüquqları qeydiyyata alınmışdır. Bunlardan 14 minə yaxını ilkin, 34 mindən çoxu isə təkrar qeydiyyata aiddir. Həmçinin, 11 minə yaxın ipoteka müqaviləsi, 900-ə yaxın yüklülük (icarə, istifadə) dövlət qeydiyyatına alınmışdır. Sözügedən dövrdə 44 minə yaxın daşınmaz əmlakın texniki inventarlaşdırılması aparılaraq texniki pasport və 39 minə yaxın daşınmaz əmlak obyektinə müayinə aktı tərtib edilmişdir. Hüquqi və fiziki şəxslərə dövlət reyestrindən 38 minə yaxın məhdudiyyət arayışı, əhaliyə xidmətlə bağlı 10 minə yaxın digər müxtəlif məzmunlu arayışlar verilmişdir.



Dövlət əmlakının özəlləşdirilməsi prosesində şəffaflığın təmin edilməsi istiqamətində atılan addımlar nəticəsində 2013-cü ildə respublika üzrə 270-ə yaxın kiçik müəssisə və obyekt özəlləşdirilmişdir. Bu ilin birinci rübündə 220-yə yaxın obyektin yerləşdiyi torpaq sahəsi özəlləşdirilmiş, 229 qeyri-yaşayış sahəsi, 255 torpaq sahəsi hüquqi və fiziki şəxslərə icarəyə verilmişdir.

Səhmlərin satışı üzrə keçirilmiş 15 pul və ixtisaslaşdırılmış pul hərracında 16 səhmdar cəmiyyətinin səhmləri özəlləşdirilmişdir. İnvestisiya müsabiqəsi vasitəsilə özəlləşdirilmiş müəssisələrə 2013-cü il ərzində müqavilələr üzrə müsabiqə qalibləri tərəfindən 1,3 milyon manata yaxın investisiya qoyulmuşdur.

Daşınmaz əmlakın vahid kadastrının aparılması, ünvan reyestri və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi sahəsində də tədbirlər həyata keçirilir. Artıq Azərbaycanda ünvan reyestri informasiya sisteminin yaradılması ilə bağlı işlər başa çatdırılmaq üzrədir. Yeni qaydalara əsasən, ünvanların verilməsinə, küçə və binalara müasir dizaynlı ünvan lövhələrinin vurulmasına başlanılmışdır. Dünya Bankının həyata keçirdiyi «Daşınmaz əmlakın qeydiyyatı» layihəsi çərçivəsində təkrar, o cümlədən qeydiyyat və kadastr üzrə yeni informasiya texnologiyaları sisteminin hazırlanması ilə bağlı işlər də davam etdirilir.

**Rəşad SADIQOV**

# Sadələşdirilmiş vergi bəyannaməsi

## *Hüquqi şəxslər üzrə 1№-li Əlavənin tərtib olunmasında mühasibat uçotu məlumatlarının düzgün yerləşdirilməsi*

Qulu Soltanov,
sərbəst auditor

**Əvvəli ötən sayımızda**

**Sətir 2.2.1.1 «Bank kreditləri» «dövr ərzində daxil olmuşdur» sütununda:** 90 №-li «Qısamüddətli bank kreditləri» və 92№-li «Uzunmüddəli bank kreditləri» hesablarının kredit dövriyyəsi üzrə illik yekun məbləğ, yəni hesabat ili ərzində sadələşdirilmiş vergi ödəyicisinin Azərbaycan Respublikası ərazisində və xarici ölkələrdə yerləşən banklardan milli və xarici valyutalarla aldığı müxtəlif qısamüddətli (bir ildən artıq olmayan müddətə) və orta və ya uzunmüddətli (bir ildən artıq müddətə) kreditlərin məbləği əks etdirilir. Banklardan alınmış kreditlər üzrə faizlər hesablandıqca ödənilməli olan faizlərin hesablanmış məbləğləri 90№-li və 92№-li hesabların kreditində və ödəniş mənbələrini uçota alan hesabların debetində əks etdirildiyinə görə hesablanmış faiz məbləğləri də Əlavənin bu sütununda əks etdirilir. Məsələn, Əlavənin bu xanasında DB51 - KR90, DB51 - KR92, DB52 - KR90, DB52 - KR92, DB60 - KR90, DB26 - KR90 ikili yazılışları üzrə məbləğlər nəzərə alınmalıdır. Əlavənin bu xanasında banklardan başqa digər borc verənlərdən alınmış kreditlər və digər cəlb olunmuş vəsaitlər əks etdirilmir. **«təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir» sütununda:** Təqdim edilmişdir: boş saxlanılır. *Silinmişdir:* bu xanada 90 №-li və 92№-li hesabların debet dövriyyəsi üzrə illik yekun məbləğ, yəni hesabat ili ərzində sadələşdirilmiş vergi ödəyicisinin milli və xarici valyutalarla banklara hissə-hissə ödədiyi (qaytardığı) müxtəlif qısamüddətli və orta və ya uzunmüddətli kreditlərin məbləği, həmçinin kreditlər üzrə hissə-hissə hesablanmış faizlər üzrə banka ödənilən faiz məbləğlər əks etdirilir. Məsələn, DB90 - KR51, DB92 - KR51, DB90 - KR52, DB92 - KR52 ikili yazılışları üzrə məbləğlər nəzərə alınmalıdır. Əlavənin bu xanasında banklardan başqa digər borc verənlərdən alınmış kreditlər və digər cəlb olunmuş vəsaitlər üzrə həmin borc verənlərə ödənilən (qaytarılan) məbləğlər əks etdirilmir. Xüsusi hallar da baş verə bilər. Məsələn, krediti və kredit üzrə faizləri ödəmə imkanı olmayan hüquqi şəxsə məxsus girov qoyulmuş mallar üzrə mülkiyyət hüququnun girov saxlayan banka keçməsi baş verə bilər. Bu halda bankın mülkiyyətinə keçən əmlakın bazar qiymətilə müəyyənləşdirilən dəyərinin kreditin və faizlərin silinməsinə yonəldilən hissəsi Əlavənin bu xanasında əks etdirilməlidir. *Ləğv edilmişdir:* bu xana adətən boş saxlanılır. Əgər bank tərəfindən kreditin və faizlərin bir hissəsi bağışlanılarsa, iddia müddəti ötdükdən sonra kreditin və faizlərin qalan hissəsinin ödənilməsi dayandırılarsa, kredit alan barədə məhkəmə orqanları tərəfindən müslisolma haqqında qərar qəbul edilməklə kredit və faiz öhdəliklərinə xitam verilərsə kreditin və faizlərin ödənilməsindən imtina edilən hissəsi «ləğv edilmişdir» xanasında uçota alına bilər.

***Misal.*** Bank kreditləri üzrə aşağıdakı ikili yazılışlar verilmişdir *(bax: Cədvəl 1)*.

Bu əməliyyatlar üzrə məbləğlər dövriyyə cədvəlində aşağıdakı kimi olacaqdır (hüquqi şəxsin hesabat ilinin əvvəlinə 40000 manat yerli banka kredit borcu qalmışdır) *(bax: Cədvəl 2)*.

Belə halda həmin göstəricilər bəyannamənin Əlavəsində aşağıdakı kimi əks etdirilməlidir *(bax: Cədvəl 3)*.

Əlavənin 2.2.1.1.1-ci sətri üzrə 22500 manat daxil olan vəsait DB52 - KR90 = 20000 və DB26 - KR90 = 2500 manat ikili yazılışlar üzrə məbləğlərin cəminə, 10500 manat silinən məbləğ isə DB90 - KR52 = 8000 və DB90 - KR52 = 2500 manat ikili yazılışlar üzrə məbləğlərin cəminə bərabərdir. 12000 manat məbləğ isə riyazi hesablama ilə tapılır (22500 - 10500 = 12000 manat).

**Davamı növbəti sayımızda**

Cədvəl 1

| Əməliyyatların məzmunu | Debet | Kredit | Məbləğ |
|---|---|---|---|
| Yerli bankdan mili valyutada qısamüddətli kredit alınmışdır | 51 | 90 | 35000 |
| Yerli bankdan xarici valyutada uzunmüddətli kredit alınmışdır | 52 | 92 | 60000 |
| Xarici bankdan xarici valyutada qısamüddətli kredit alınmışdır | 52 | 90 | 20000 |
| Yerli bankdan alınmış qısamüddətli kredit üzrə ödənilməli olan faiz hesablanmışdır | 20 | 90 | 7000 |
| Xarici bankdan alınmış qısamüddətli kredit üzrə ödənilməli olan faiz hesablanmışdır | 26 | 90 | 2500 |
| Milli valyutada alınan qısamüddətli kreditin bir hissəsi yerli banka ödənilib | 90 | 51 | 27000 |
| Xarici valyutada alınan qısamüddətli kreditin bir hissəsi xarici banka ödənilib | 90 | 52 | 8000 |
| Milli valyutada alınan qısamüddətli kredit üzrə hesablanmış faiz məbləğlər yerli banka ödənilib | 90 | 51 | 7000 |
| Xarici bankdan xarici valyutada alınan qısamüddətli kredit üzrə hesablanmış faiz məbləğlər ödənilib | 90 | 52 | 2500 |
| Uzunmüddətli kreditin ödənilməsi məqsədilə girov qoyulmuş əsas vəsait üzrə mülkiyyət hüququ girov saxlayan yerli banka keçmişdir – əsas vəsaitin ilkin dəyəri silinir | 47 | 01 | 50000 |
| Əsas əvsaitin yığılmış amortizasiya dəyəri silinir | 02 | 47 | 15000 |
| Əsa vəsaitin bazar qiymətilə qiymətləndirilən dəyəri təqdim olunmuş kimi uçota alınır | 62 | 47 | 40000 |
| Sadələşdirilmiş vergi hesablanır (40000 x 4%) | 47 | 68 | 1600 |
| Əsas vəsaitin təqdim edilməsindən əldə edilən mənfəət | 47 | 80 | 3400 |
| Təqdim edilən əsas vəsaitin bazar qiymətilə qiymətləndirilər dəyəri uzunmüddəli kreditin silinməsinə yonəldilir - zaçot edilir | 92 | 62 | 40000 |

Cədvəl 2

| Hes. №-si | Hesabın adı | 01 yanvar 2012-ci il tarixə qalıq | | 2012-ci ildə dövriyyə | | 01 yanvar 2013-cü il tarixə qalıq | |
|---|---|---|---|---|---|---|---|
| | | *Debet* | *Kredit* | *Debet* | *Kredit* | *Debet* | *Kredit* |
| 90 | Qısamüddətli bank kreditləri | | | 44500 | 64500 | | 20000 |
| 92 | Uzunmüddətli bank kreditləri | | 40000 | 40000 | 60000 | | 60000 |
| | Cəmi kredit hesabları üzrə | | 40000 | 84500 | 124500 | | 80000 |

Cədvəl 3

| Göstəricilər | Dövr ərzində daxil olmuşdur, manatla | Təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir, manatla | Hesabat dövrünün sonuna, manatla |
|---|---|---|---|
| 2.2.1.1 Bank kreditləri | 124500 | Təqdim edilmişdir:<br>Silinmişdir: 84500<br>Ləğv edilmişdir: | 80000 |
| 2.2.1.1.1 o cümlədən xarici borclar | 22500 | Təqdim edilmişdir:<br>Silinmişdir: 10500<br>Ləğv edilmişdir: | 12000 |

# Əmanətlərin sığortalanması riskin qarşısını alır

## *Birinci rübdə qorunan əmanətlər 3,5 mln. manat təşkil edib*

*Banklar və xarici bankların yerli filialları müflis olduqda fiziki şəxslərdən əmanətə qəbul olunmuş pul vəsaitinin itirilməsi riskinin qarşısını almaq, Azərbaycan Respublikasında maliyyə və bank sisteminin sabitliyini və inkişafını təmin etmək məqsədilə Əmanətlərin Sığortalanması Fondu yaradılmışdır. Fond qanunvericiliyə uyğun olaraq banklarda sığorta hadisəsi baş verdikdə kompensasiya ödənişlərini həyata keçirir və sığorta ödənişi baş verdikdə kompensasiya milli valyutada olan əmanətlər üçün manatla ödənilir. Həm milli, həm də xarici valyutada olan əmanətlər bir əmanət kimi manatla, ABŞ dolları və avroda olan əmanətlərə - həmin valyutalarla, digər valyutalarda olan əmanətlərə isə sığorta hadisəsi baş verən günə Mərkəzi Bankın rəsmi məzənnəsinə əsasən çarpaz məzənnə ilə hesablanmış ABŞ dolları və ya avro ödənilir.*

### Kompensasiyanın alınma qaydaları

Sığorta hadisəsi baş verən zaman qorunan əmanətlərə görə kompensasiya ödənişləri verilir. Qorunan əmanətlər bank hesabında olan vəsaitin elə bir hissəsidir ki, əmanətçiyə xidmət göstərən iştirakçı bankda sığorta hadisəsi baş verdikdə Fond tərəfindən «Əmanətlərin sığortalanması haqqında» Qanunla müəyyən edilmiş məbləğdə kompensasiya ödənilir.

Kompensasiya almaq üçün əmanətçi yazılı ərizə ilə Fonda müraciət etməlidir. Ərizəyə əmanət müqaviləsi, əmanət kitabçası, yaxud qanunvericiliyə uyğun olaraq, əmanəti təsdiqləyən digər sənədlər və onların surəti əlavə olunmalı, habelə əmanətçinin şəxsiyyətini təsdiq edən sənəd təqdim edilməlidir. Kompensasiya almaq üçün əmanətçinin nümayəndəsi müraciət etdikdə o, əlavə olaraq Fonda notariat qaydasında təsdiq olunmuş etibarnamə təqdim etməlidir. Təqdim olunan sənədlərin yoxlanılması və ödənişə yönəldilməsi qaydası Fondun Himayəçilik Şurası tərəfindən müəyyən edilir. Fond əmanətçilərin ərizələrini kompensasiya ödənişi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq bir il ərzində qəbul edir. Əmanətçinin müraciətini qeyri-mümkün etmiş halların mövcud olduğunu təsdiq edən sənədlər təqdim edildikdə müddət əmanətçinin ərizəsinə əsasən uzadıla bilər. Lakin bundan asılı olmayaraq, bütün hallarda əmanətçinin kompensasiya almaq hüququ Fondun kompensasiyaların ödənilməsi haqqında bildirişinin ilk dəfə dərc edildiyi gündən başlayaraq beş il müddətində saxlanılır. Fond kompensasiyanı əmanətçinin ərizəsini qəbul etdiyi gündən ən geci 90 təqvim günü ərzində ödəməlidir. Müstəsna hallarda Fondun Himayəçilik Şurasının qərarı ilə kompensasiyaların ödəniş müddəti 90 təqvim gününədək uzadıla bilər.

Fond tərəfindən hər bir iştirakçı bankda sığortalanmış əmanət üzrə 30 min manatdan çox olmamaq şərtilə əmanətin 100%-i həcmində kompensasiya ödənilir.

### Sığortalanmayan əmanətlər

Əmanətlərin Sığortalanması Fondunun iştirakçısı olan bankların sayı 42-dir. 2010-cu il iyunun 1-dən üzv banklarda illik 12%-dən yuxarı faiz dərəcəsi ilə yerləşdirilmiş əmanətlər qorunan əmanətlərə aid deyil və Fond tərəfindən qorunmayan əmanətlərə görə kompensasiya ödənilmir.

Həmçinin, adsız depozit sertifikatlarının yerləşdirilməsi yolu ilə cəlb edilmiş pul vəsaitləri, bankın ölkə ərazisindən kənarda açılmış bölmələri tərəfindən cəlb olunmuş əmanətlər, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı şübhəli əməliyyatlar nəticəsində qanunvericiliyə müvafiq qaydada müəyyən edilmiş əmanətlər, cinayətin törədilməsi nəticəsində yaranması məhkəmə qərarı ilə təsdiq edilmiş əmanətlər, üzərinə həbs qoyulmuş əmanətlər, cəlb edildiyi günə Fondun Himayəçilik Şurasının Mərkəzi Bank ilə razılaşdırılmaqla müəyyən etdiyi həddən yuxarı illik faiz dərəcəsi ilə qəbul edilmiş əmanətlər, fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı pul vəsaitləri, fiziki şəxslərin bankın vəkalətli idarəetməsində olan pul vəsaitləri, ödəniş müddətlərinin, başa çatıb-çatmamasından asılı olmayaraq əmanətçinin banka olan borcunun əsas məbləği və faizləri həcmində əmanəti, bank qarşısında öhdəliklərin təminatı olan əmanətlər Fond tərəfindən sığortalanmır və iştirakçı bankda sığorta hadisəsi baş verdikdə onlara görə kompensasiya ödənilmir.

> *2010-cu ildən etibarən üzv banklarda illik 12%-dən yuxarı faiz dərəcəsi ilə yerləşdirilmiş əmanətlər qorunan əmanətlərə aid deyil*

Bankın Müşahidə Şurasının, Audit Komitəsinin, İdarə Heyətinin üzvləri və onların yaxın qohumlarının əmanətləri, bankın 10% və daha çox səsvermə hüququ verən səhmlərinə malik olan şəxslərin və onların yaxın qohumlarının əmanətləri, kompensasiyaların ödənilməsi barədə elanın ilk dəfə dərc edildiyi tarixdən əvvəlki təqvim ili ərzində bankın auditini keçirmiş kənar auditorların əmanətləri də qorunmayan əmanətlərdir.

### Birinci rübün nəticələri

Bu günlərdə Əmanətlərin Sığortalanması Fondu birinci rübün nəticələrini açıqlayıb. Bu ilin ilk üç ayı ərzində fiziki şəxslərin cəmi əmanətləri 434 mln. manat artaraq 5 mlrd. 213 mln. manata çatmış və ümumi əmanətlərin 63%-ni təşkil etmişdir, bu da ötən rüblə müqayisədə 2% artım deməkdir. Həmin dövr ərzində fiziki şəxslərin cəmi əmanətlərinin 34%-ni, yəni 1,76 mlrd. manatını qorunmayan əmanətlər, 66%-ni (3,5 mlrd. manat) isə qorunan əmanətlər təşkil etmişdir.

Kompensasiya olunan əmanətlər ötən rüblə müqayisədə 73,2 mln. manat artaraq 1 mlrd. 612 mln. manata çatmışdır ki, bu da qorunan əmanətlərin 44,6%-ni təşkil edir. Qorunan əmanətlərin 58%-i manatın, 38%-i ABŞ dollarının və 4%-i avronun payına düşür.

**AYTƏN**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

Audit

# Fəaliyyətini müvəqqəti dayandırmış hüquqi şəxsin fəaliyyətinin baş verməsi anlayışı

Hüquqi şəxsin təsisçiləri (səhmdarları) hüquqi şəxsin fəaliyyətinin, həmçinin fiziki şəxslər özünün sahibkarlıq fəaliyyətinin müəyyən müddətə müvəqqəti olaraq dayandırılması barədə qərar qəbul edə bilərlər. Bu halda vergi ödəyicisi (hüquqi və fiziki şəxslər) Vergi Məcəlləsinin 16.3-cü maddəsinə uyğun olaraq fəaliyyətinin və ya əməliyyatlarının dayandırılması günündən gec olmayaraq vergi orqanına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada arayış təqdim etməlidir. Arayışda sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatların dayandırılmasının müddəti göstərilməlidir.

Lakin vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini və ya digər vergi tutulan əməliyyatlarını (əmlak və torpaq vergisi üzrə əməliyyatlar istisna olmaqla) müvəqqəti dayandırdığı dövrdə müxtəlif (təsadüfi) təsərrüfat əməliyyatları baş verə bilər. Həmin əməliyyatların vergi tutulan əməliyyatlar olub-olmaması məsələsinə aydınlıq gətirilməlidir. Bunun üçün Məcəllənin 16.3-cü maddəsində göstərilən «faktiki olaraq fəaliyyət göstərməsi müəyyən edildikdə» ifadəsinin leksik mənası açıqlanmalıdır.

Sual yarana bilər ki, konkret olaraq nə «fəaliyyət göstərmə» sayılır və vergi ödəyicisinin arayışda göstərdiyi müddət ərzində əgər vergi öhdəliyi yaratmayan hər hansı əməliyyat baş vermişdirsə, bu hal «fəaliyyət göstərmiş» kimi hesab edilə bilərmi?

Məsələn, mənfəət vergisi ödəyicisinin fəaliyyətini müvəqqəti dayandırdığı dövrdə malsatanlara olan kreditor borcların ödənilməsi, banka olan kredit üzrə borcların ödənilməsi, əvvəlki dövrlərdə təqdim etdiyi mallar (işlər, xidmətlər) üzrə debitor borcların müştərilər tərəfindən ödənilməsi, sadələşdirilmiş vergi ödəyicisinin anbarında qalan malların xarab olmasına görə silinməsi və sair vergi öhdəliyi yaranmayan əməliyyatlar baş verə bilər. Lakin göstərilən əməliyyatlar baş verdikdə vergi ödəyicisi fəaliyyətini bərpa etmiş hesab edilməməlidir. Çünki «fəaliyyət» anlayışı təsərrüfat subyektinin məhsul (iş, xidmət) istehsalı prosesində olması anlamı daşıyır. Məsələn, istehsal məqsədilə malların alınması, əməkhaqqının hesablanması, məhsulun istehsal edilməsi və sair. Fəaliyyətini müvəqqəti dayandırdıqdan sonra «fəaliyyət» anlamına gəlməyən təsərrüfat əməliyyatları, məsələn, vergi öhdəliyi yaratmayan borcların ödənilməsi, keçmiş dövrlərdən qalan debitorların qəbulu üzrə əməliyyatlar baş verərsə, vergi ödəyicisini fəaliyyətini bərpa etməli olan şəxs kimi qiymətləndirmək düzgün deyildir.

***Misal üzərində izah edək.***

Mənfəət vergisi ödəyicisi olan (hesablama metodu ilə uçot aparan) hüquqi şəxsin 01.10.2012-ci il tarixə müştərilərdən alacağı 5000 manat debitor borcu və banka ödənilməli 3000 manat gecikdirilmiş kredit borcu qalmışdır. Borcların yaxın vaxtlarda ödənilməsi imkanları məhduddur. Buna baxmayaraq, hüquqi şəxs 01 oktyabr 2012-ci il tarixdən 01 oktyabr 2015-ci il tarixədək olan dövr üzrə (3 il müddətinə) fəaliyyətinin dayandırılması qərarına gəlmiş və müvafiq arayışı 01 oktyabr 2012-ci il tarixdə vergi orqanına təqdim etmişdir. 06 may 2013-cü il tarixdə (fəaliyyətin dayandırıldığı dövrdə) debitor borclu müştəri tərəfindən borcun bir hissəsi (2000 manat) hüquqi şəxsin bank hesabına daxil olmuş və həmin vəsait də bank hesabından banka olan kredit borcunun ödənilməsinə silinmişdir. Göründüyü kimi, təsərrüfat əməliyyatları baş verməsinə baxmayaraq, hər hansı vergi öhdəliyi yaranmır, bu əməliyyatlar vergi tutulan əməliyyatlar deyildir və hər hansı məqsədli fəaliyyət göstərmək cəhdi də olmamışdır. Deməli, belə hallarda vergi ödəyicisinin fəaliyyətinin bərpa edilməsi düzgün deyildir.

Göstərilən misal sadələşdirilmiş vergi ödəyicisində baş versəydi, 06 may 2013-cü il tarixdə debitor borclu müştəri tərəfindən ödənilən 2000 manat vəsait əldə olunmuş hasilat kimi hesab edilməlidir və bu zaman vergitutma obyekti yarandığına görə hüquqi şəxs fəaliyyətini bərpa etmiş halına gəlir. Ona görə də belə halda sadələşdirilmiş vergi ödəyicisi olan hüquqi şəxs tərəfindən vergi orqanına qanunla müəyyən edilmiş müddətdə 2013-cü ilin 2-ci rübü üzrə sadələşdirilmiş vergi bəyannaməsi təqdim edilməlidir və 01 oktyabr 2012-ci il tarixdə vergi orqanına təqdim etdiyi arayış vergi hesabatlarının verilməsi üzrə öhdəlik yarandığı gündən qüvvəsini itirir.

beynəlxalq panoram

# Azərbaycan Mətbuat Şurası və Vergilər Nazirliyinin «Vergilər» qəzetinin birgə təşkil etdikləri «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin ELANI

***Müsabiqənin məqsədi***

Müsabiqənin məqsədi ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu müasir vergi sistemi ilə bağlı yenilikərin və məlumatların cəmiyyətə çatdırılmasında peşəkar jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

***Müsabiqənin mövzuları:***

- Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti;
- Nağdsız ödəniş sisteminin inkişaf istiqamətləri;
- Əmək müqaviləsi: gələcəyə təminat.

***Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılması***

Müsabiqəyə hər üç istiqamət üzrə təqdim edilmiş yazıların mükafatlandırılması nəzərdə tutulur.

➔ I yer (3) - 800 manat
➔ II yer (3) - 500 manat
➔ III yer (3) - 300 manat

Bundan əlavə, 10 ən yaxşı yazı müəllifinə həvəsləndirici mükafatlar veriləcəkdir. Qaliblər Azərbaycan Mətbuat Şurası və Vergilər Nazirliyinin «Vergilər» qəzetinin xüsusi diplomları ilə təltif olunacaqlar.

***Müsabiqədə iştirak***

Müsabiqə elan olunan gündək ən azı bir il müddətində kütləvi informasiya vasitələrində (qəzet, jurnal və informasiya agentliklərində) fasiləsiz çalışan şəxslər müsabiqədə iştirak edə bilərlər.

***Müsabiqəyə təqdim olunan yazılara aid tələblər***

1. Müsabiqəyə hər jurnalist yalnız bir yazı təqdim edə bilər.
2. Yazı son bir ildə həftədə bir dəfədən az olmayaraq nəşr edilən, Azərbaycan Mətbuat Şurasının tərtib etdiyi «qara siyahı»ya düşməyən mətbuat orqanlarında dərc edilməlidir.
3. Yazıda «Vergilər Nazirliyinin «Vergilər» qəzetinin və Azərbaycan Mətbuat Şurasının keçirdikləri müsabiqəyə təqdim etmək üçün» qeydi göstərilməlidir.

***Yazıların qəbulu şərtləri***

1. Yazının dərc olunduğu mətbuat orqanı (qəzet, jurnal) 2 nüsxə
2. Yazının elektron variantı (Times New Roman (14) şriftində - CD diskdə) 1 nüsxə
3. Yazının A4 formatda çap olunmuş variantı (müəllifin imzası göstərilməməlidir) 3 nüsxə
4. Yazıların həcmi: 1 səhifə (A3) olmalıdır (9-11 min işarə)

***Tələb olunan sənədlər***

1. Əmək kitabçasının işlədiyi KİV tərəfindən təsdiq edilmiş surəti (möhür və baş redaktorun imzası)
2. Şəxsiyyət vəsiqəsinin surəti

*Yazıların qəbulu 01 may 2013-cü il tarixdən başlayır, 24 may 2013-ci il tarixdə bitir. Müsabiqənin nəticələri 10 iyun 2013-cü ilədək açıqlanacaqdır.*

*Yazılar rəsmi iş günləri saat 10:00-dan 16:00-dək Azərbaycan Mətbuat Şurasına şəxsən təqdim olunmalıdır (Bakı şəhəri, Teymur Əliyev küçəsi 38)*

***Qiymətləndirmə meyarları:***

- mövzunun əhatə olunması, yazının araşdırması, əsaslandırma;
- materialın oxucu üçün informasiyalılıq səviyyəsi;
- yazının dil və üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi;
- jurnalist obyektivliyi, qərəzsizliyi, tərəfsizliyi və məsuliyyəti.

# Böyük Britaniyada cərimələr sərtləşdirilib



Ölkənin HMRC vergi sistemi nümayəndələrinin bildirdiyinə görə, gəlirləri barədə bəyannamələri vaxtında təqdim etməyən vergi ödəyiciləri özlərini cərimələnmək riski qarşısında qoyurlar. İndiyə qədər minimum 100 avro məbləğində ilkin cərimə barədə 850 minə yaxın vergi ödəyicisinə bildiriş göndərilib. Cərimələr 2011-2012-ci illərdə Böyük Britaniyanın qanunvericiliyini pozmuş vergi ödəyicilərinə yönəldilir. Əvvəllər vergi hesabatlarının verilməsi ilə bağlı məsələlərin tənzimlənməsi üçün üç aya qədər müddət verilirdi. Bu il ilkin cərimə 100 avro həcmində tətbiq olunur, mayın 1-dək bəyannamə təqdim etməyənlər isə yenidən cərimələnir və bu dəfə cərimənin məbləği 900 avroya qaldırılır. Vergi hesabatının təkrar gecikdirilməsi üçün də 300 avrodan başlayaraq cərimələr tətbiq olunur. Bundan əlavə, HMRC də «xroniki» intizamsız vergi borclularından ödəniləcək verginin məbləğinin 5%-dən 100%-nə qədər cərimə qoymaq hüququna malikdir. 2013-cü ilin əvvəlindən bəri HMRC tərəfindən bu cür cərimələr üzrə 85 milyon avrodan artıq vəsait toplanılmışdır.

# Pullar Avropadan Asiyaya köçür

*Kiçik bir knyazlıq olan Lixtenşteyn bu yaxınlara qədər bank sirlərinin ciddi şəkildə qorunması ilə fərqlənirdi. Lakin bu ölkə artıq vergidən yayınmaq istəyən insanların əsas sığınacağı olmaq mövqeyini itirməkdədir.*

Lixtenşteyn hələ dörd il əvvəl ABŞ və Avropa Birliyinin təzyiqi ilə bank sirrinin qorunması ilə bağlı qanunda dəyişiklik etmək məcburiyyətində qalmışdı. «Bizim ölkəmiz vergi cənnəti deyil, investisiyalar üçün təhlükəsiz bir limandır, - maliyyə bazarları üzrə maliyyə xidmətinin rəhbəri Mario Hassner demişdir. - Əvvəllər müştərilər öz pulları ilə Lixtenşteynə gəlirdilər, 2008-ci ildən isə bizim maliyyə vasitəçilərimiz müştərilərin ayağına getmək məcburiyyətindədir».

Öz ərazisinə görə ABŞ-ın Roy Aylend ştatının iyirmidəbiri qədər olan bu Avropa ölkəsi milyarderlər arasında populyarlığını saxlayır, onlar holdinq şirkətlərini və investisiya təşkilatlarını burada qeydiyyata alдırır, öz aktivlərini buradan idarə edirlər. Lakin bank sirlərinə qarşı sərt tədbirlərin tətbiq olunması nəticəsində kapitalın qlobal şəkildə yer dəyişdirməsi baş verir. Qərbi Avropanın özəl bankları və offşor strukturları tərəfindən idarə olunan aktivlərin həcmi 2008-ci ildən bəri 2% azalmış, Asiyada isə eyni dövrdə aktivlərin həcmi 15% artaraq 2012-ci ilin sonunda 8 trilyon dollara çatmışdı. Sinqapurun maliyyə dairələrinin məlumatına görə, 2001-ci ildən bəri bu ölkədə özəl bankçılıq sahəsində aktivlərin həcmi beş dəfə artaraq 1,4 trilyon dollara çatmışdır.

# Berlin turistlər üçün vergi tətbiq edir

*2013-cü il iyul ayının 1-dən Berlində turistlər üçün onların qaldıqları mehmanxanada vergi tutulacaq və verginin məbləği yaşayış xərcinin beş faizi qədər olacaq. Yeni verginin hesabına hər il büdcəyə əlavə 25 milyon avro vəsait daxil olacağı təxmin edilir.*



Bu vergi həm mehmanxanalarda, həm də hostellərdə və kempinq yerlərində qalan turistlərə tətbiq olunacaq. Bununla belə, Almaniyanın paytaxtına işgüzar münasibətlə gələn qonaqlar vergi ödəməyəcəklər. Ekspertlər Berlin hökumətinin turistləri işgüzar qonaqlardan necə fərqləndirəcəyinə indidən şübhə ilə yanaşırlar.

Turistlər üçün vergi qoymaq artıq Avropanın iri şəhərlərində yerli hakimiyyət dairələrinin əl atdıqları populyar tədbirlərdən birinə çevrilib. Bu cür yığımlar Romada, Florensiyada, Barselonada (və ümumilikdə Kataloniyada) tətbiq olunur. Rusiyada isə kurort yığımı 1991-ci ildən 2004-cü ilə qədər qüvvədə olmuşdur. Adətən, bu qəbildən olan vergi ya müəyyən edilmiş məbləğə əsasən tutulur, ya da mehmanxana nömrəsinin qiymətinin hər hansı faizi üzrə tətbiq olunur. Bu vergidən əldə edilən vəsaitlər, bir qayda olaraq, yerli büdcələrə çatır.

Müxtəlif reytinq sorğularına görə, Berlin Avropada turistlər üçün ən cəlbedici şəhərlərdən biridir. Son illərdə Almaniya paytaxtına gələn turistlərin sayı kəskin şəkildə artıb - VisitBerlin portalının məlumatına əsasən, 2012-ci ildə bu şəhər 11 milyon qonaq qəbul edib.

# Latviyada minimum əməkhaqqı artırıla bilər

*Gələn ilin büdcəsi üçün hazırlıq prosesində ölkə parlamentində hökumət təmsilçilərinin çıxışları dinlənilmişdir. Büdcə və maliyyə məsələləri üzrə komissiyanın mövqeyinə görə, sosial sahədə başlıca prioritet minimal əməkhaqqı məbləğinin 10% artırılması olmalıdır.*

Bununla bərabər, vergiyə cəlb olunmayan minimum vergi məbləği də artırılmalıdır və bu artım daha az əməkhaqqı alanlara şamil edilməlidir.

İrəli sürülən ideyanı həmkarlar ittifaqları dəstəkləyirlər və bunun oxşar göstəricilərin ümumi paketini əhatə etməsini təklif edirlər. Həmkarlar ittifaqları hökumətdən real addımlar atılmasını gözləyirlər. Bu günə qədər həmkarlar ittifaqları işəgötürənlərlə qeyri-rəsmi şəkildə minimal əməkhaqqının 225 lat (332 manat) müəyyənləşdirilməsi barədə razılıq əldə ediblər. Ölkədə böhranın arxada qalmasına baxmayaraq, müavinətləri artırmadığına görə hökumət kəskin tənqid olunur. Lakin Latviyanın böyük məbləğdə xarici borcları qaytarması hökumətin sosial siyasətini reallaşdırmasına təsirsiz qalmır.

krossvord



**Yuxarıdan aşağı:** 1.Şimali Osetiyada şəhər; 2.Neqroid irqinə aid olan insanların ümumi adı; 3.Rusiyada çay; 5.İranda şəhər; 6.Üstü açıla bilən ikiadamlıq idman avtomobili; 7.Kürdəmir rayonunda kənd; 8.Rusiyanın Başqırdıstan Respublikasında şəhər; 14.Bakı arxipelaqında ada; 15.Çəki *(rusca)*; 17.Hərbi qarnizon nəzdində fəaliyyət göstərən tibbi müəssisə; 19.Səslənməsinə görə eyni olan, lakin yazılmasına görə fərqlənən sözlər; 20.Primat və şirlərin ailə qrupu; 21.Yerüstü işıq cihazı; 25.Ərəb dilindən tərcümədə sülh və əmin-amanlıq deməkdir. Müsəlmanlar arasında görüşərkən istifadə olunur; 26.X-XI əsrlərdə cənubi Fransada yaranmış strateji oyun növü, taxta lövhə üzərində həyata keçirilir; 27.Azərbaycan və Şərq ədəbiyyatında şeir vəzni.

**Soldan sağa:** 1.476-1453-cü illərdə mövcud olmuş dövlət; 4.Quba rayonunun ən böyük kəndlərindən biri. Ölkəmizdə turizmin inkişaf etdiyi yerlərdən hesab edilir; 9.Fast-fud yeməyi; 10.Qədim yunan mifologiyasının personajı, görkəmli rəssam və mühəndis. O, bir çox alətlərin ixtiraçısı, eləcə də Krit adasındakı labirintin memarıdır; 11.«Beyin oğurlanması» filmində Miriş obrazını canlandıran aktyorun adı; 12.Danışıq üçün telefon dəstəyi ələ götürülərkən söylənilən ilk söz; 13.Siciliyanın şərq sahilində stratovulkan; 16.Buffonada və qroteska priyomlarından istifadə edən estrada və teatr artisti; 18.1832-ci ildə öz-özünə induksiya hadisəsini kəşf edən amerikalı fizik. Elektromaqnit induksiyasının ölçü vahidi də onun adını daşıyır; 22.Qədim yunan mifologiyasında elm, poeziya və incəsənətin qəyyumları sayılır; 23.Üç *(rusca)*; 24.Norveçin paytaxtı; 28.Mülkiyyətdən istifadədən, məhsul satışından və xidmət göstərilməsindən sistematik olaraq gəlir əldə edən hüquqi şəxs; 29.Rusiyada məktəbli uşaqlar üçün nəzərdə tutulan populyar yumoristik kinojurnal, 1974-cü ildən indiyə kimi efirə çıxır; 30.Azot turşusu duzunun ümumi adı; 31.Tərkibi və molekulyar kütləsinə görə eyni, lakin quruluşuna görə fərqlənən kimyəvi birləşmələr.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Qıpçaq; 2.Dinar; 3.Otit; 5.Ümid; 6.Boqarne; 7.Kelvin *(Uilyam)*; 8.Ekler - İçi kremli, üzərində isə şokoladlı qlazur Fransa deserti; 14.Adi; 15.«Par»; 17.Əmircan; 19.Anonim; 20.Marka; 21.Odetta; 25.Terek; 26.Ofra; 27.NATO; **Soldan sağa:** 1.Qudzon; 4.Dümbək; 9.Pontiak; 10.İnqul; 11.Aura; 12.Fen; 13.Ardi; 16.Şəddə; 18.Kameo; 22.Nain; 23.Çar; 24.Etüd; 28.Nəcəf; 29.Kvadrat; 30.Manqal; 31.Moskva.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.
Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 15000

# Azərbaycanda velosiped bayramı

**Əvvəli 1-ci səhifədə**

Federasiya prezidenti qeyd etmişdir ki, bu gün Azərbaycan dünya ölkələri sırasında təkcə öz iqtisadi uğurları ilə deyil, həm də idman sahəsində əldə etdiyi nailiyyətlərlə tanınır. Ölkə başçısı, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev ölkədə idman və bədən tərbiyəsinin inkişafına böyük diqqət və qayğı göstərir. Paytaxtda və regionlarda müxtəlif idman qurğuları, Olimpiya kompleksləri tikilib istifadəyə verilir, gənclərin idmana cəlb edilməsi üçün məqsədyönlü işlər aparılır.

Qeyd olunmuşdur ki, «Tour d'Azerbaidjan 2013» ölkənin tarixi və mənzərəli landşaftları ilə zəngin yeddi rayonun ərazisində keçiriləcəkdir. F.Məmmədov veloturun böyük idman bayramı olması ilə yanaşı, ölkəmizdə velosiped idmanının inkişafına yeni təkan verəcəyini söyləmiş, velotur iştirakçılarına qələbə sevinci arzulamışdır.

Açılış mərasimində gənclər və idman naziri Azad Rəhimov, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki çıxış edərək idmançılara uğurlar arzulamışlar.

Sonra «Tour d'Azerbaidjan 2013»də iştirak edəcək komandaların ictimaiyyətə təqdimatı keçirilmişdir. Komandalar təmsil etdikləri ölkələrin dövlət bayraqları altında meydana daxil olmuşlar. Veloturda ümumilikdə 24 komandanın çıxış edəcəyi bildirilmişdir: bunlardan 17-si kontinental, 5-i milli komandalardır. Bütövlükdə velotura 41 ölkədən velosipedçi qatılmışdır.

Tədbir geniş konsert proqramı ilə davam etmişdir. Əvvəlcə Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin və populyar türk müğənnisi Mustafa Cecelinin canlı çıxışları, sonra isə Azərbaycan incəsənət ustalarının ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş konserti olmuşdur.

Beynəlxalq velosiped turunun yerli və xarici kütləvi informasiya vasitələrində, o cümlədən «Eurosport», «Eurosport-2» və dünyanın digər aparıcı televiziya kanalları vasitəsilə geniş işıqlandırılması məqsədilə ölkəmizə həmin kanalların 40-dan çox əməkdaşı ezam olunmuşdur.



### *İlk mərhələnin qalibi Azərbaycan velosipedçisi olmuşdur*

Mayın 1-də «Tour d'Azerbaidjan 2013» beynəlxalq velosiped turuna start verilmişdir. Heydər Əliyev Mərkəzinin qarşısından start götürən yarış iştirakçıları Heydər Əliyev Mərkəzi-metronun «Koroğlu» stansiyası-Heydər Əliyev Mərkəzi marşrutu üzrə 11 dəfə dövrə vurmaqla 157 km məsafə qət etmişlər. Birinci mərhələnin qalibi Azərbaycanın «Synergy Baku Cycling Project» komandasının velosipedçisi Kristof Şvayster olmuşdur. Velosipedçimiz 157 kilometrlik məsafəni 3 saat 32 dəqidə 19 saniyə göstərici ilə başa vuraraq, yarışın lideri olmuşdur. Finişə 2-ci çatan İsveçrənin «Atlas Personal» komandasının təmsilçisi Maksim Averin (o, tanınmış velosipedçi Aleksandr Averinin oğludur) idmançımızdan 2 saniyə geri qalmışdır. Üçüncü yerin sahibi isə 3 saat 32 dəqiqə 21 saniyəlik nəticə ilə Niderlandın «Rabobank Development Team» komandasının üzvü Maartin van Trijp olmuşdur.




Birinci mərhələnin yekunlarına görə, sprinter yarışmasına 20 xalla «Synergy Baku Cycling Project» komandasının velosipedçisi Kristof Şvayster liderlik etmişdir. İkinci yerdə 15 xalla Maksim Averin qərarlaşmış, dağ təsnifatında isə Sezar Fonte (Efapel - Glassdrive, Portqaliya) liderlik qazanmışdır. Komanda hesabında «Synergy Baku Cycling Project» komandası (10 saat 37 dəqiqə 1 saniyə) birinciliyə imza atmışdır.

Turun birinci mərhələsinin yekunlarına həsr olunmuş mətbuat konfransında çıxış edən Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti, veloturun təşkilat komitəsinin sədri Sahib Ələkbərov bildirmişdir ki, «Tour d'Azerbaidjan 2013» beynəlxalq velosiped turunun birinci mərhələsində idmançılar əzmkarlıqla mübarizə aparmışlar. Federasiyanın vitse-prezidenti qələbə münasibətilə «Synergy Baku Cycling Project» komandasının üzvü Kristof Şvaysteri və ölkə ictimaiyyətini təbrik etmişdir.

«Tour d'Azerbaidjan 2013» beynəlxalq velosiped turunun birinci mərhələsinin qalibi olmuş Azərbaycan komandasının idmançısı Kristof Şvaytser qeyd etmişdir ki, komandamız qarşısında duran minimum tapşırığın öhdəsindən gəlmişdir. O, mərhələnin gedişatı zamanı son məqamda irəli çıxaraq qalib gəlmək üçün inadla səy göstərdiyini və məqsədinə çatdığını razılıqla vurğulamışdır. Qalib velosipedçi bu qələbəni məhz digər komanda yoldaşlarının köməyi ilə əldə etdiyini bildirərək, onlara təşəkkürünü ifadə etmişdir.

### *Velosipedçimiz növbəti mərhələdə ikinci nəticə göstərmişdir*

«Tour d'Azerbaidjan 2013» beynəlxalq velosiped turunun 2-ci mərhələsi mayın 2-də Bakı şəhərində Şıx çimərliyi ilə üzbəüz ərazidəki müasir velosiped parkından start götürərək, «Bakı-Abşeron-Qobustan-Şamaxı-İsmayıllı» marşrutu üzrə keçirilmişdir. Velosipedçilər 183 kilometr məsafə qət etdikdən sonra Azərbaycanın dilbər guşələrindən birində - İsmayıllı Olimpiya Kompleksinin qarşısında finiş xəttini keçmişlər.

İkinci mərhələnin qalibi Türkiyənin «Torku Şəkərspor» komandasının ukraynalı legioneri Sergey Qrişin olmuşdur. İkinci yeri «Synergy Baku Cycling Project» komandasının velosipedçisi Aleksandr Surutkoviç, üçüncü yeri isə Qazaxıstanın «Kontinental Team Astana» komandasının üzvü Bəxtiyar Kojatayev tutmuşdur.

Turun ikinci mərhələsinin yekunlarına həsr olunmuş mətbuat konfransında çıxış edən Türkiyənin «Torku Şəkərspor» komandasının velosipedçisi Sergey Qreçin bu mərhələnin onun üçün son dərəcə çətin olduğunu, buna baxmayaraq bütün gücü ilə sıcrayış qrupuna çataraq önə keçdiyini, rəqiblərini üstələdiyini, turun qalibi olmaqdan böyük sevinc duyduğunu söyləmişdir.

Bu mərhələdə ikinci yerin sahibi - «Synergy Baku Cycling Project» komandasının üzvü Aleksandr Surutkoviç qarşıda hələ üç mərhələnin olduğunu, təmsil etdiyi komandanın qalib gəlmək şansını hələ itirmədiyini bildirmişdir. O, komandasının «Tour d'Azerbaidjan 2013» beynəlxalq velosiped turunda qalib olmağa iddialı olduğunu qeyd etmişdir.

Finişə 3-cü çatan Qazaxıstanın «Kontinental Team Astana» komandasının üzvi Bəxtiyar Kojatayev bu yarışın onun üçün önəmli olduğunu bildirmişdir: «Ötən il mən Azərbaycanda təşkil olunan velosiped yarışında iştirak etmişdim. O zaman çox təcrübəli həmkarlarıma uduzmuşdum».

İkinci mərhələdə velosipedçilər dəstəsinin irəlilədiyi bütün marşrut üzrə onları yaxınlıqdakı yaşayış məntəqələrinin sakinləri salamlamış, qələbəyə səsləmişlər. İsmayıllı Olimpiya Kompleksinin ətrafında yol boyunca toplaşan rayon sakinləri və rəhbərliyi velosipedçiləri bayram əhval-ruhiyyəsi ilə qarşılamışlar. Kompleksin ərazisində çoxmillətli diyarın sakinlərinin xalq yaradıcılığı sərgisi, habelə konsert proqramı təşkil olunmuşdur.

### *Üçüncü mərhələ də Azərbaycan komandası qənaətbəxş çıxış etmişdir*

Mayın 3-də «Tour d'Azerbaidjan 2013» beynəlxalq velosiped turunun 3-cü mərhələsi keçirilmişdir. Veloyürüşün Qəbələ-Oğuz-Şəki-Oğuz-Qəbələ marşrutu üzrə (165 km) keçən bu mərhələsində Ukraynanın «İSD» komandasının üzvü Vitali Popkov qalib gəlmişdir. İkinci yeri Belçikanın «Lotto-Belisol» komandasından Stiq Breyks, üçüncü yeri isə Azərbaycanın «Synergy Baku Cycling Project» komandasının üzvü Kristofer Şvaytser tutmuşdur.

Türkiyənin «Torku Şekerspor» komandasının təmsilçisi Sergey Qreçin bu mərhələdə də liderin mavi köynəyini əldən verməmişdir. Yaşıl köynək - klassifikasiya üzrə liderlik Kristof Şvaytserdə, qırmızı köynək - klassifikasiya üzrə liderlik isə Portuqaliya təmsilçisi Rikkardo Vilen Epafel-Qlasdrayvda qalmışdır.

Ən yaxşı gənc yürüşçü üçün nəzərdə tutulmuş ağ-bənövşəyi köynəyin sahibi yenə də «Astana» komandasından Bəxtiyar Kojotayevə nəsib olmuşdur.

Mərhələnin qalibinə və mükafatçılarına medalları veloturun təşkilat komitəsinin sədri, Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Allahverdiyev təqdim etmişlər.

Əvvəlki mərhələlərdə olduğu kimi, velosipedçilərin irəlilədiyi marşrut üzrə yaxınlıqdakı yaşayış məntəqələrinin sakinləri idmançıları böyük coşqu ilə salamlamışlar. Turdan sonra keçirilən mətbuat konfransında mərhələnin qalibi Vitali Popkov qeyd etmişdir ki, bu, bütövlükdə komandanın nailiyyətidir. Kristofer Şvaytser isə bu mərhələdə qazandığı üçüncü yeri qənaətbəxş nəticə kimi dəyərləndirmişdir.



Üçüncü mərhələdən sonra «Torku Şekerspor» komandasının velosipedçisi Sergey Qreçin liderliyi inamla qorumuşdur. O, yarışın sonuna qədər göy köynəyi özündə saxlayacağını bildirmişdir.

### *Dördüncü mərhələdə də ikinci yer bizim oldu*

«Tour d'Azerbaidjan 2013» beynəlxalq velosiped turunun dördüncü mərhələsi «Qəbələ-Şamaxı» marşrutu üzrə keçirilmişdir. Velosipedçilər 116 kilometr məsafə qət edərək dəniz səviyyəsindən təxminən 1450 metr hündürlükdə yerləşən Pirqulu rəsədxanasının yaxınlığında, Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin qarşısında finiş xəttini keçmişlər. Bu mərhələnin qalibi Lüksemburqun «Leopard-Trek Continental Team» klubunun velosipedçisi Yan Xirt olmuşdur. Azərbaycanın «Synergy Baku Cycling Project» komandasının üzvü Konor Makkonvi finiş xəttini ikinci keçmişdir. Üçüncü yerin sahibi isə İspaniyanın «National Team Spain» klubunun velosipedçisi Rubio Fernandes Dieqo olmuşdur.

Digər marşrutlarla müqayisədə dördüncü mərhələ yolun dik və sərt yamac olması ilə seçilirdi, bu mənada, turun həlledici və ən çətin mərhələsi sayılırdı. Türkiyənin «Torku Şekerspor» komandasının təmsilçisi Sergey Qreçin bu mərhələdə 7-ci yeri tutsa da, liderin mavi köynəyini əldən verməmişdir. Dağ təsnifatında isə liderliyə 15 xalla Azərbaycanın «Synergy Baku Cycling Project» komandasının üzvü Konor Makkonvi yiyələnmişdir. Sprinter hesabında isə 36 xalla komandamızın daha bir üzvü - Kristof Şvaytser hamıdan öndə olmuşdur. Ən yaxşı gənc yürüşçü köynəyini yenə də «Astana» komandasından Bəxtiyar Kojotayev özündə saxlamışdır.

Turdan sonra keçirilən mətbuat konfransında mərhələnin qalibi Yan Xirt çox çətin, ancaq uğurlu bir gün yaşadığını bildirmişdir: «Bu, mənim ilk qələbəmdir və bunun davamını gətirmək istəyirəm».

### *Velotura yekun vurulmuşdur*

«Tour d'Azerbaidjan 2013» beynəlxalq velosiped turunun sonuncu mərhələsi mayın 5-də Azadlıq meydanından - Hökumət evinin qarşısından start götürmüşdür. Bu mərhələdə Bakı şəhərinin mərkəzi küçələri ilə 12 dairə vuran idmançılar ümumilikdə 144 kilometr məsafə qət edərək yenə də Azadlıq meydanında finiş xəttini keçmişlər.




Gərgin mübarizə şəraitində keçən bu mərhələdə komandalar birincilik uğrunda var qüvvələri ilə mübarizə aparmışlar. Finiş xəttini birinci olaraq Litva milli komandasının idmançısı Vaitkus Tomas keçərək sonuncu mərhələnin qalibi olmuşdur. İkinci yeri «Leopard Trek Continental Team» komandasının idmançısı De Bie Sean, üçüncü yeri «Robobank Development Team» komandasının idmançısı Qodri Konstant tutmuşlar. Azərbaycanın «Synergy Baku Cycling Team» komandasının idmançıları - Şvaytser Kristof 7-ci, Surutkoviç Oleksandr isə 15-ci olmuşdur.

Yarışdan sonra qaliblərin təntənəli mükafatlandırma mərasimi keçirilmişdir. Beş mərhələnin yekununa görə, «Synergy Baku Cycling Project» komandasının idmançısı Kristof Şvaytser yaşıl köynəyin (ən yaxşı sprinter), «Torku Şekerspor» komandasının idmançısı Serqey Qreçın (ümumi hesabda lider) mavi köynəyin, «Astana Continental Team» kamandasının idmançısı Baxtiyar Kojatayev ağ bənövşəyi köynəyin (ümumi hesabda ən gənc idmançı) sahibi olmuşlar. Ən yaxşı azərbaycanlı idmançı tituluna isə «Synergy Baku Cycling Project» komandasının idmançısı Elçin Əsədov layiq görülmüşdür.

«Tour d'Azerbaidjan 2013» yarışının ən yaxşı komandası adına Portuqaliyanın «Efapel Glassdrive» komandası layiq görülmüşdür. «Synergy Baku Cycling Project» komandası isə 23 komanda arasında 4-cü yeri tutmuşdur.

Tədbirin sonunda «Hilton Baku» mehmanxanasında «Tour d`Azerbaidjan»ın yekunlarına həsr olunmuş mətbuat konfransı keçirilmişdir. Konfransda Beynəlxalq Velosiped Federasiyasının prezidenti Patrick McQuaid, Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov və yarışın qalibləri iştirak etmişlər.

Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti, veloturun təşkilat komitəsinin sədri Sahib Ələkbərov bildirmişdir ki, bütövlükdə «Tour d`Azerbaidjan» beynəlxalq velosiped turu yüksək səviyyədə keçmişdir. O, yarışa verilən dəstəyə görə federasiya rəhbərliyi adından Azərbaycan Prezidenti cənab İlham Əliyevə minnətdarlığını bildirmişdir. Qeyd edilmişdir ki, yarışın təşkilində bütün dövlət qurumları federasiyaya yaxından köməklik göstərmişlər.

Azərbaycan komandasının çıxışına gəldikdə isə, Sahib Ələkbərov nəticələrdən razı qaldığını söyləmişdir. Əsas hədəfin Avropa Oyunlarına və Olimpiadaya hazırlıq olduğu, hələ gənc olan komandamızın gələcəkdə daha böyük uğurlar qazanacağına inam yarandığı qeyd edilmidir.

İki ildə ölkəmizə 3 dəfə səfər etdiyini vurğulayan Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti Patrick McQuaid yarışın yüksək səviyyədə təşkil olunduğunu bildirmişdir. Onun sözlərinə görə, güclü idmançıların mübarizə apardıqları bu turnir digər ölkələr üçün model rolunu oynaya bilər.

Patrick McQuaid qeyd etmişdir ki, «Synergy Baku Cycling Project» komandası da çox yaxşı çıxış edib. Kollektivin gözəl gələcəyi var və bu komandanın uğurları Azərbaycan gənclərinin velosiped idmanına marağını artıracaqdır. O, gələcəkdə «Synergy Baku Cycling Project» komandasında azərbaycanlıların sayının daha da artacağına ümid etdiyini bildirmişdir. Patrick McQuaidın sözlərinə görə, burada Azərbaycan Velosiped İdmanı Federasiyasının da rolu çox böyükdür. Hazırda komandanın bir neçə azərbaycanlı üzvü vardır. Onlar yarışlarda iştirak edərək təcrübə toplayırlar.

Sonra yarışın qalibi olmuş velosipedçilər çıxış edərək turun yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdırmışlar.

**Samir MUSTAFAYEV**